QARABAĞ AZƏRBAYCANDIR!



**Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi**

6

# CƏNUB QAZ DƏHLİZİ: Dünyaya Açılan Enerji Qapısı!

2



*Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub*

SƏS
№ 021 (6704) 4 fevral 2023-cü il. Qiymәti 60 qәpik

# Dünya nəyin astanasında?





11

**"Biz artıq Qərbi Azərbaycanla bağlı tariximizin yeni mərhələsinə qədəm qoyduq"**



5

**"Böyük Əfv Sərəncamının imzalanmasının şahidi olacağıq"**



5

## İtirilmiş nəsil



11

## AQTA qəribə vaxtında oyanıb



10

**Hansı tip mənzillərə tələbat daha çoxdur?**

10



*"Hal-hazırda Bakı şəhərində və ətraf qəsəbələrdə mənzil bazarında 2022-ci illə müqayisədə hələ ki, tələbat çıxarışı olan və qiymətləri 250000 AZN qədər olan...*

## Media reyestrinə qara PR hücumu: kimlər narahatdır?

Mövzuya daxil olmadan öncə belə bir fikri önə sürmək yerinə düşərdi: cəmiyyətdə təqribən bu cür düşüncə formalaşmağa başlayıb ki, fəaliyyətində uğur qazana bilməyənlər həmin uğursuzluğunun...



10

# CƏNUB QAZ DƏHLİZİ: Dünyaya Açılan Enerji Qapısı!




*Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub*

***Bu gün Azərbaycan regionda nəhəng enerji layihələrinin müəllifinə və fəal iştirakçısına çevrilib. Ölkəmizin təşəbbüskarı olduğu layihələr təkcə region üçün deyil, dünya miqyasında da böyük əhəmiyyət daşıyır. Hər dəfə olduğu kimi, yenə də Azərbaycan ev sahibliyi edir, bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir. Fevralın 3-də Bakıda "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasları keçirilir.***



Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Qeyd edək ki, tədbirlərdə Avropa Komissiyasının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələri iştirak edirlər.İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar təmsil olunur. Həmçinin, tədbir "Cənub Qaz Dəhlizi və Yaşıl enerji üzrə nazirlər sessiyası", "Cənub Qaz Dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam edəcək. Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji

## *Prezident İlham Əliyev: "Enerji təhlükəsizliyi, həmçinin milli təhlükəsizlik məsələsidir"*

Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışı zamanı Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni bir səhifə açdığını, Rumıniya Prezidentinin bugünkü tədbirdə iştirakının enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetirdiyini, iki ölkə arasında əlaqələr daha uğurlu olacağını deyərək bildirib ki, çünki Azərbaycan dünyada çox etibarlı nüfuz qazanan tərəfdaşdır. Hər dəfə olduğu kimi, Prezident İlham Əliyevin toplantıda iştirak etməsi tədbirin əhəmiyyətinə bir daha diqqət çəkir. Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib ki, dekabrda enerji təhlükəsizliyi baxımından iki mühüm hadisə oldu: "Azərbaycan və Rumıniya qaz təchizatı haqqında saziş imzaladı. Qaz təchizatı bu yaxınlarda başlayacaq. Beləliklə, Rumıniya Cənub Qaz Dəhlizi ölkələri qrupuna qoşulur".

Ötən ilin dekabrında, həmçinin Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında imzalanmış yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalandığını xatırladan dövlətimizin başçısı qeyd edib: "Bu, bizim səylərimizin ümumu sinergiyasıdır. Biz enerji təhlükəsizliyi sahəsində yeni bir səhifə açırıq. Bunlar mühüm hadisələr idi. Yanvar ayında isə biz Macarıstanla qaz təchizatı sahəsində Anlaşma Memorandumu imzaladıq. Beləliklə, biz komandamızın üzvlərinin sayını artırırıq". Prezident İlham Əliyev çıxışı zamanı Rumıniya Prezidentinin bugünkü tədbirdə iştirakının enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetirdiyini bir daha göstərir: "Bizim gələcək ümumi addımlarımız iki ölkə arasında əlaqələr nəticəsində atılacaq. Biz strateji tərəfdaşlarıq", - deyə dövlətimizin başçısı vurğulayıb ki, enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir: "Biz bu gün artıq doqquzuncu dəfədir toplaşırıq. Nəzərdən keçirəcəyimiz məsələlər çoxdur - gördüyümüz işləri müzakirə edəcək və gələcək üçün addımlarımızı planlaşdıracağıq". Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci iclasından sonra xeyli dəyişikliklərin baş verdiyini vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Dünya dəyişib, enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir".

### AZƏRBAYCAN PREZİDENTİ: "Biz artıq Cənub Qaz Dəhlizinin genişləndirilməsi haqqında danışırıq"

Dövlət başçısı çıxışı zamanı bir daha vurğulayıb ki, enerji təhlükəsizliyi, həmçinin milli təhlükəsizlik məsələsidir. Biz yeni marşrutların qurulması və yeni resursların cəlb olunması sahəsində işləyirik. İndi görürük ki, bu, heç vaxt olmadığı qədər vacibdir: "Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında edirik və vaxt itirmədik. Cənub Qaz Dəhlizinin icrasında müəyyən yubanmalar oldu. Lakin bütövlükdə biz çalışdıq ki, onu mümkün qədər tez başa çatdıraq. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq". Prezident İlham Əliyev enerji təchizatının davamlı şaxələndirilməsinə hazırlaşdıqlarını söyləyib: "Cənub Qaz Dəhlizi iki ildən bir az çox vaxt əvvəl istifadəyə verildi. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi haqqında danışırıq". "Biz, həmçinin alternativ enerji mənbələrindən danışırıq. Bu, əslində bizim enerji təchizatımızın davamlı şaxələndirilməsinin göstəricisidir. Biz buna hazırıq", - deyə Azərbaycan Prezidenti vurğulayıb. "Ötən il vacib bir hadisə oldu və bu, bizim enerji təhlükəsizliyi sahəsində ümumi öhdəliyimizi nümayiş etdirir",-deyən dövlət başçımız ötən il iyulun 18-də Bakıda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə birgə imzaladıqları "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun əhəmiyyətini xüsusi vurğulayan dövlətimizin başçısı bildirib: "Bu, əslində, bizim gələcək planlarımız üçün açıq yol xəritəsidir.

***Ardı Səh. 3***

# CƏNUB QAZ DƏHLİZİ: Dünyaya Açılan Enerji Qapısı!

Əvvəli-Səh-2

Biz 2027-ci ilədək Avropaya öz qaz ixracımızı iki dəfə artırmağı planlaşdırmışıq. Bu, mümkündür, çünki bizim resurslarımız, qarşılıqlı siyasi iradəmiz və çox yüksək səviyyədə etimadımız var". Azərbaycan Prezidenti mühüm hadisələrdən olan Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılışı olduğunu deyərək vurğuladı ki, bu, təbii ki, Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində yaradılıb və onun genişləndirilməsindən xəbər verir. İnterkonnektorun açılmasının Bolqarıstana təbii qazın tədarükünə başlamağa imkan verdiyini deyən dövlətimizin başçısı bildirib: "Bu, həmçinin interkonnektor vasitəsilə qonşu ölkələrə qaz təchizatının genişləndirilməsini nəzərdən keçirməyə şərait yaradır".

Prezident İlham Əliyev, həmçinin Azərbaycan qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə Anlaşma Memorandumunun imzalanmasından sonra fəal şəkildə əlavə imkanların yaradılması haqqında düşündüklərini söylədi: "Hazırda biz bu il yeni yataqlardan məhz hasilatı gözləyirik və mövcud "Şahdəniz" yatağında hasilatın artırılması birmənalı olaraq gündəlikdədir. Biz, həmçinin daxildə enerji səmərəliliyi haqqında düşünürük. Biz itkilərin azaldılması proqramı üzərində çalışırıq". Dövlət başçımız bildirdi ki, bizim təbii qaz ixracımız artır: "İxracımız 2021-ci ildə təxminən 19 milyard, ötən il 22,6 milyard kubmetr olub. Bu il isə 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu göstərir ki, Avropa Komissiyası ilə imzaladığımız Anlaşma Memorandumu uğurla həyata keçirilir",- deyən dövlət başçımız onu da vurğuladı ki, biz nəinki hasilatı, o cümlədən ixracı artıracağıq və onun coğrafiyasını genişləndiririk: "Əminəm ki, bu gün layihəyə qoşulmuş ölkələr bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin biz digər interkonnektorlarla Avropada daha çox ölkəni layihəyə qoşa biləcəyik"."Təbii qaz ehtiyatlarımız bizim və tərəfdaşlarımız üçün ən azı yüz il kifayət edəcək",-deyən Azərbaycan Prezidenti bildirdi ki, bu gün biz, əlbəttə ki, gələcəyə doğru baxırıq, yaşıl enerji ilə bağlı Məşvərət Şurası yaranıb: "Cəmi dörd ölkə var və heyət kifayət qədər kiçikdir. Lakin onun böyüməsi potensialı var. Nəinki hökumətlər, o cümlədən şirkətlər də belə mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər".

Azərbaycan Prezidenti İlham Əliyev Məşvərət Şurasının iclasında ilk olaraq konseptual məsələlərin həll edilməsini deyərək bildirdi ki, əsasən, öz fəaliyyətimizi necə quracağıq, hər bir ölkənin öhdəlikləri necə olacaq, özəl şirkətlər buraya necə qoşula bilər kimi məsələlərdir. "Bu, konsorsium -şirkətlərin konsorsiumu olacaq və yaxud hər ölkə öz ərazisində üzərinə düşən işləri icra edəcək",-deyən dövlət başçımız vurğuladı ki, bu məsələlər barədə razılığın əldə olunması vacibdir: "Burada Azərbaycanın quruda və dənizdə bərpaolunan enerji resurslarından enerjinin alınması, həmin enerjinin Gürcüstanla sərhədə nəql edilməsi, bundan əlavə, Qara dənizin dibi ilə kabelin çəkilməsi məsələsi də durur. Ona görə biz planlarımızı müvafiq qaydada strukturlaşdırmalıyıq və baxmalıyıq ki, kim potensial qaydada investor rolunu oynaya bilər. Əlbəttə, beynəlxalq maliyyə təsisatları ilə də əməkdaşlıq qurmalıyıq". İclasda maliyyə təsisatlarının təmsil olunduqlarını vurğulayan dövlətimizin başçısı deyib: "Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və digər maliyyə qurumları bizimlədir. Ümid edirik ki, məhsuldar əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik". Prezident İlham Əliyev, həmçinin SOCAR ilə BP arasında uğurlu əməkdaşlığa da toxunub: "Dövlət Neft Şirkəti və BP artıq 30 ildir ki, strateji münasibətlərə malikdirlər. Bu, sonrakı 30 il ərzində də belə olacaq".

**PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjinin son nöqtəsi olmayacaq"**

"Bərpaolunan enerji bizim planlarımızın bir hissəsidir. Üç əsas enerji şirkəti ilə razılaşdıq və anlaşma memorandumu imzaladıq ki, biz 25 qiqavat həcmində bərpaolunan




enerji resursları əsasında həm quruda, həm dənizdə külək və günəş enerjisi istehsal edək. Bu, çox böyük potensialdır". Bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib. Qara dənizin dibi ilə kabelin çəkilməsi barədə işlərin planlaşdırılmasının da önəmini vurğulayan dövlətimizin başçısı bildirib: "Bu da Avropadakı tələbatla əlaqələndirilməlidir. Beləliklə, biz potensial əməkdaşlığımızı Avropa qitəsində görəcəyik. Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjinin son nöqtəsi olmayacaq". Prezident İlham Əliyev iclasda Azərbaycanda yaşıl enerji potensialının çox böyük olduğunu deyərək bildirdi ki, bu, artıq təsdiq olunub. Təkcə Xəzər dənizində külək enerjisi potensialının 157 qiqavat olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Quruda isə külək və günəş enerjisi potensialı 27 qiqavatdır. İki il əvvəl Vətən müharibəsi nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə külək və günəş enerjisi potensialı 10 qiqavatdan çoxdur. Biz Naxçıvan Muxtar Respublikasında da böyük potensial müəyyən etmişik. Hazırda biz 500 meqavatlıq günəş enerjisi stansiyasının tikilməsinə dair danışıqlar aparırıq".

**RUMINİYA PREZİDENTİ KLAUS YOHANNİS: "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verir"**

"2022-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması Cənub Qaz Dəhlizinin Avropa İttifaqının şaxələndirmə strategiyasının əsas komponenti kimi rolunun gücləndirilməsinə yol açır". Bunu Rumıniya Prezidenti Klaus Yohannis fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib. Klaus Yohannisin sözlərinə görə, Rumıniya Avropanın enerji tələbatlarının qarşılanmasında Azərbaycana və Cənub Qaz Dəhlizinə mühüm töhfəsini verdi və bunu etiraf etdi: "Rumıniya Mərkəzi və Cənub Şərqi Avropada yeni bazarlara doğru dəhlizin inkişafına və genişləndirilməsinə yönəlmiş səylərə qoşulmaqda öz davamlı öhdəliyini qeyd edir. Biz artan milli istehlakımızı əhatə etmək üçün Xəzər qazının əlavə həcmlərinin alınmasında çox maraqlıyıq". Rumıniya Prezidenti çıxışı zamanı bildirdi ki, son illərdə Rumıniya qaz tranzit imkanlarının inkişafına və qonşu ölkələrlə bağlantının yaradılmasına xeyli sərmayələr yatırıb: "İlk olaraq biz tamamilə yeni nəqlolunma infrastrukturunu Rumıniya ərazisində yaratdıq. Həmçinin Bolqarıstan və Macarıstanla müvafiq qaydada interkonnektorların daha da təkmilləşdirilməsini tamamladıq".

O qeyd edib ki, Rumıniyanın transqaz şirkəti Yunanıstan, Bolqarıstan və Macarıstanda olan qaz nəql sistemi operatorları ilə öz səylərini birləşdirərək şaquli dəhlizin inkişafına çalışdı. Beləliklə, 2022-ci ilin dekabrında dörd şirkətlə imzalanmış Anlaşma Memorandumu Cənubi və Mərkəzi Avropa arasında Rumıniya vasitəsilə qaz axınının iki istiqamətə getməsini təmin edəcəkdir. Rumıniya Prezidentinin sözlərinə görə, bu da öz növbəsində bütöv bir regionun enerji təhlükəsizliyinə töhfə verəcəkdir: "2022-ci ilin yanvar ayında Rumıniyanın nəql məsələsi ilə məşğul olan operator sərmayələri yatıraraq Transbalkan qaz boru kəmərini məhz əks axın istiqamətində istismara verdi. Bu da Azərbaycandan Türkiyə, Bolqarıstan və Rumıniya vasitəsilə qaz həcmlərinin alternativ təchizat marşrutudur və həmçinin digər bazarlara çıxışı da təmin edir". Həmçinin Rumıniya üçün digər vacib bir layihəni qeyd edən K.Yohannis deyib: "Bu da bizim strateji tərəfdaşlarımıza aiddir, Moldovaya aiddir. Çünki Kişineu paytaxt şəhərinə məhz qazın təchizatına gəldikdə, bizim razılaşmamız 2020-ci ilin oktyabrında oldu. Bu, əslində, Moldovanın illik istehlakını təmin etməyə əlavə imkanlar yaradacaq. Bütün bu davamlı səylər və Rumıniyanın yatırdığı sərmayələr yekun olaraq Cənub Qaz Dəhlizinin yeni bazarlara Cənubi, Şərqi və Mərkəzi Avropada genişləndirilməsinə imkan yaradır. Bu, əslində hər iki tərəf üçün çox uduşlu vəziyyətdir. Azərbaycan öz təbii qazının ixracatını şaxələndirir və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verir".

**KLAUS YOHANNİS: "Xəzər qazı barədə Prezident Əliyevin verdiyi təminatlar Avropa bazarları üçün sabitliyi təmin edə bildi"**

Tədbirdə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson çıxışı zamanı bildirib ki, Aİ, Azərbaycan və tərəfdaş ölkələr enerji təhlükəsizliyinin təmin edilməsində birgə çalışırlar: "Bu gün apardığımız müzakirə enerji bazarlarının qlobal səviyyədə dəyişməsi şəraitində baş tutur. Qlobal artım risk altındadır. Enerji təhlükəsizliyi isə bizi düşündürən birinci məsələdir. Bu səbəbdən bu gün Məşvərət şuralarının toplantıları mühüm fürsət hesab olunur. Bu, göstərir ki, Avropa İttifaqı, Azərbaycan və tərəfdaş ölkələr enerji təhlükəsizliyinin və bazarda sabitliyin təmin edilməsində birgə çalışırlar". Klaus Yohannis 2022-ci ildə görünməmiş enerji çağırışları ilə üzləşdiklərini, qazın çatışmaması və ya münasib əlçatan qaz təşkilatının olmaması, qiymətlərin dəyişkənliyi və bazarda qeyri-sabitliyin baş verdiyini vurğulayıb: "Avropa bazarına Xəzər qazının çatdırılması barədə Azərbaycan adından Prezident Əliyev tərəfindən şəxsən verilmiş təminatlar bazarlar üçün ən çətin anda çoxdan tələb olunan sabitlik və proqnozlaşdırmanı təmin edə bildi".Kadri Simson, həmçinin onu da deyib ki, Avropa İttifaqı və Azərbaycan çox yaxşı əməkdaşlıq edirlər: "Biz uzunmüddətli dayanıqlı enerji tərəfdaşlığının əsaslarını qoyuruq. Bu tərəfdaşlıq bərpaolunan enerjiyə və enerji sistemlərimizin daha sıx bir-birinə bağlı olmasına söykənir"."Avropa İttifaqı və Azərbaycan artıq çox yaxşı əməkdaşlıq edirlər. Enerji sahəsində strateji tərəfdaşlığa dair bizim yeni anlaşma memorandumumuz Cənub Qaz Dəhlizinin rolunu həm Avropa İttifaqı, həm Azərbaycan üçün gücləndirdi və onun genişlənməsinin dəstəklənməsi məqsədilə ümumi qətiyyətimizi nümayiş etdirdi", - deyə Kadri Simson vurğulayıb.

O qeyd edib ki, Cənub Qaz Dəhlizi boru kəməri ilə Avropa İttifaqına qaz təchizatı 2021-ci ildə 8,1 milyard kubmetrdən 2022-ci ildə 11,4 milyard kubmetrə çatıb. Bu artım Aİ-nin enerji təhlükəsizliyinə böyük töhfə verib. Kadri Simson, həmçinin Cənub Qaz Dəhlizinin Aİ-yə qaz təchizatının sabit və rəqabətcil mənbələrdən biri kimi qalacağını da deyib: "Transadiratik Boru Kəmərində aparılmış sonuncu mütləq sınağın nəticələri hazırki buraxma qabiliyyətinin iki dəfə artırılmasından xəbər verir. Qaz təchizatı sahəsində Azərbaycan ilə Avropa İttifaqı arasında artan əməkdaşlıq bizim diplomatik fəaliyyətimizin artımı ilə üst-üstə düşür. Həmin qarşılıqlı qətiyyət bu böhranı iqtisadi imkanlara çevirəcək".

Aİ komissarı deyib ki, bu tərəfdaşlığın gələcəkdə bizi hansı səviyyədə aparacağını bilməliyik: "Sıxılmış maye qaz təchizatını artırdığımız halda Cənub Qaz Dəhlizi Avropa İttifaqına boru kəməri ilə təchiz edilən qazın az sayda sabit və rəqabətcil mənbələrdən biri kimi qalacaqdır. Bu, həmçinin Azərbaycanla birgə qüvvələrini birləşdirmək üçün Xəzər bölgəsində digər tərəflər üçün potensial qaydada iqtisadi fürsətdir"."Azərbaycan Avropa İttifaqına bərpaolunan enerji ixracatçısına çevrilmək potensialına malikdir",-deyən Kadri Simson vurğulayıb ki, bərpaolunan enerjiyə marağımız o deməkdir ki, biz qazdan başqa digər enerji mənbələri üzərində etibarlı tərəfdaşlarımızla əməkdaşlığımızı genişləndirmək istəyirik.

***RƏFİQƏ HÜSEYNOVA***

# "Azərbaycan İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynayır"

*Prezident İlham Əliyev İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi nazirini qəbul edib*



***Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini qəbul edib.***

Dövlətimizin başçısı 2020-ci ildə İtaliyaya dövlət səfərini, həmçinin ötən ilin sentyabrında rəsmi səfərini xatırlayıb, İtaliyanın Prezidenti və digər yüksək rəsmi şəxsləri ilə görüşlərini məmnunluqla qeyd edib. Prezident İlham Əliyev imzalanmış sənədlərə əsasən Azərbaycan-İtaliya əməkdaşlığının strateji tərəfdaşlıq ruhunda inkişaf etdiyini bildirib, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu deyib.

İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın yalnız enerji sahəsini deyil, çox geniş sahələri əhatə etdiyi bildirildi, elm və təhsil sahəsində əməkdaşlıq xüsusi qeyd olunub. Diqqətə çatdırılıb ki, ADA Universiteti ilə İtaliya universitetləri arasında imzalanmış sənədə uyğun olaraq, Bakıda İtaliya-Azərbaycan Universitetinin açılması mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətlərinin fəal çalışdıqları vurğulanıb. Diqqətə çatdırılıb ki, Azərbaycanla İtaliya arasında əməkdaşlıq bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir. Həmçinin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın vacib komponenti olan TAP layihəsinin əhəmiyyəti qeyd edilib.

İtaliyalı nazir öz növbəsində qəbula görə təşəkkürünü bildirib və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının nazirlər toplantısı çərçivəsində aparılan müzakirələrin əhəmiyyətini qeyd edib. Nazir ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığını diqqətə çatdırıb.

Cilberto Piketto Fratin yaxın gələcəkdə TAP layihəsinin ötürücülük qabiliyyətinin artırılmasının əhəmiyyətini qeyd etdi, İtaliyanın Azərbaycandan qaz idxalının artırılmasında maraqlı olduğunu bildirib. Qonaq Azərbaycanın böyük bərpaolunan enerji potensialına malik olduğunu deyərək İtaliya şirkətlərinin gələcəkdə bu sahədə də ölkəmizlə əməkdaşlıq etmək niyyətində olduqlarını diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınmasında iştirak etmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# "Avropa İttifaqı Azərbaycanla təbii qaz, yaşıl enerji sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır"

*Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

dövlətimizin başçısı tədbirdə iştirakına görə Kadri Simsona təşəkkürünü bildirib. Prezident İlham Əliyev ötən ilin iyulunda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədə uyğun olaraq, ölkəmizin qaz istehsalını 2027-ci ilədək artırmaq niyyətində olduğunu və Aİ-yə üzv ölkələr arasında qurulan interkonnektorlar vasitəsilə yeni bazarlara çıxış imkanlarının yarandığını diqqətə çatdırıb.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Yaşıl enerji üzrə nazirlərin 1-ci iclasının, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında nazirlər səviyyəsində görüşün keçiriləcəyini qeyd edib.

Ölkəmizin bərpaolunan enerji sahəsində böyük resurslarının olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış sənədin də ölkəmizin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin Avropa bazarına çıxarılması üçün böyük perspektivlər vəd etdiyini bildirib.

Eyni zamanda Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılacaq müzakirələr nəticəsində yeni təşəbbüslərin və ideyaların yaranacağına ümidvar olduğunu qeyd edib.

Kadri Simson Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna görə təşəkkürünü ifadə edib və Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin qaza tələbatının ödənilməsində oynadığı rolunun, enerji təhlükəsizliyinə verdiyi töhfələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Qonaq deyib ki, hazırda Aİ məkanında enerji təhlükəsizliyi baxımından gərgin zamanda Azərbaycanın dəstəyi və yardımı yüksək qiymətləndirilir. Energetika məsələləri üzrə komissar bildirib ki, Aİ Azərbaycanla təbii qaz, yaşıl enerji sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır, həmçinin Azərbaycanla elektrik enerjisi ilə bağlı əməkdaşlıq imkanlarını yüksək qiymətləndirərək onu nəzərdən keçirir və bu istiqamətdə də əməkdaşlığa hazırdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına verdiyi töhfəsinin və Brüssel sülh prosesinin əhəmiyyəti vurğulanıb.



# “Biz artıq Qərbi Azərbaycanla bağlı tariximizin yeni mərhələsinə qədəm qoyduq”

*Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərlinin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:*

**- XX əsrin sonlarında 250 mindən çox azərbaycanlı öz də-də-baba yurdundan didərgin düşdü. Qərbi Azərbaycan İcması bu istiqamətdə hüquq pozuntularını aradan qaldırmaq baxımından əməli addımlar atır. Bilmək istəyirik ki, İcmanın başqa hədəfləri nədən ibarət olacaq?**

- Qərbi Azərbaycan İcmasının əsas hədəfi heç şübhəsiz ki, son 200 ildə öz tarixi torpaqlarından qovulmuş insanların yurdlarına qayıtması məsələsidir. Qərbi Azərbaycan İcması 2022-ci il avqustun 3-də Azərbaycan Qaçqınlar Cəmiyyətinin bazasında yaradıldı. Sizin də qeyd etdiyiniz kimi, sonuncu deportasiya zamanı Qərbi Azərbaycan ərazisindən bizim son hesablamalarımıza görə 300 minə yaxın soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qovulub. Bu sonuncu deportasiya Qarabağ münaqişəsinin ilk mərhələsində həyata keçirilib. Doğrudur, hər tarixi fürsətdə ermənilər soydaşlarımıza qarşı etnik təmizləmə siyasəti, soyqırımlar həyata keçiriblər. Bu hadisə ilə bizim Qərbi Azərbaycan dediyimiz ərazimizin erməniləşdirilməsi prosesi başa çatdırıldı. Təbii ki, biz soydaşlarımızın öz doğma yurdlarına qayıtması məsələsini gündəmə gətirəndə, ilk növbədə, beynəlxalq hüquqa, tarixi ədalətə əsaslanırıq. Əgər bu gün Qarabağ münaqişəsi həll olunursa, artıq Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın taleyi məsələsinə də aydınlıq gətirilməlidir. Buna görə də Qərbi Azərbaycan İcması Qayıdış Konsepsiyası hazırladı. Bizim əsas hədəflərimiz sırasında son 200 ildə Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı ermənilərin törətmiş olduğu bütün cinayət faktlarının, mədəni irsimizə qarşı vəhşilik aktlarının hamısını sənədlər, sübutlar əsasında ortaya qoyulması və dünya ictimaiyyətinə çatdırılması məsələsidir. Çünki dünya ictimaiyyəti Qərbi Azərbaycan həqiqətləri barədə kifayət qədər məlumatlı deyil. Onlara bu həqiqətləri çatdırmaq əsas məqsədlərimizdəndir.

**- Qərbi Azərbaycana qayıdış tarixi ədalətin bərpası, eyni zamanda, şərəf məsələsidir. Bunu həyata keçirmək çətin olmayacaq?**

- Qətiyyən çətin olmayacaq. 34 il keçməsinə baxmayaraq bizim vətəndaşlarımız bir an belə olsun həmin torpaqlara qayıtmaq fikrindən imtina etməyiblər. Ümumiyyətlə, bizim xalqımız öz dədə-baba yurduna, tarixi torpaqlarına bağlı insanlardır. 30 illik işğaldan sonra torpaqlarımız azad olunanda, hətta bəzi insanların oradakı evlərinin qapı açarını saxladığının şahidi olduq. Yəni, insanlar heç vaxt öz doğma torpaqlarına qayıtmaq ümidini itirməyiblər. Belə bir faktı nəzərinizə çatdırmaq istəyirəm ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra 10 minə yaxın ailə ərizə ilə müraciət edərək Qarabağ və Şərqi Zəngəzur ərazilərinin Ermənistanla sərhəd hissələrinə köçmək arzularını bildirdilər. Bunda məqsəd onların öz dədə-baba yurdlarına daha yaxın olmaları idi. Bu, onların mənəvi haqqıdır.

**- Ermənistanın hakim rejimi Qərbi Azərbaycanlıların öz yurdlarına qayıdışına süni maneələr törədəcəklər. Bu maneələri necə aradan qaldıracaqsınız?**

- Biz Qərbi Azərbaycana Qayıdış konsepsiyasını hazırlayarkən, ilk növbədə, qayıdacaq insanların təhlükəsizliyi məsələsini ön plana qoyduq. Bizim qəti fikrimiz budur ki, insanlarımız ora qayıdana qədər Qərbi Azərbaycan İcmasının etibar etdiyi dövlətin sülhyaratma missiyası həmin ərazilərə yerləşdirilməlidir. O ərazilərdə infrastruktur bərpa olunmalıdır. İnsanların geriyə qayıtma məsələsindən sonra o ərazilərə uyğunlaşma prosesi aparılmalıdır. Ermənilər mələk cildinə girsələr belə, biz onlara etibar edə bilmərik. Çünki onlar hər dəfə söz verib, sözlərindən çox asanlıqla qaça bilirlər. Ona görə də azərbaycanlılar o ərazilərə qayıtmamışdan qabaq onlar üçün hər cür şərait yaradılması, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi məsələsini konsepsiyamıza daxil etmişik.

**- Qərbi Azərbaycanın daha çox hansı ərazilərində soydaşlarımızın kompakt yerləşdirilməsi nəzərdə tutulur?**

- Əvvəla onu deyim ki, Qərbi Azərbaycan ərazisi son qarışına qədər Azərbaycan torpaqlarıdır və orada hazırda yaşayanlar tarixin müəyyən hissələrində gəlmə ermənilərdir. Sonuncu deportasiyaya kimi Qərbi Azərbaycanın hər yerində bizim soydaşlarımız kompakt şəkildə yaşayırdılar. Qayıdış konsepsiyamızda dislokasiya məsələsi mühümdür. Hər kəs istəyər ki, öz dədə-baba yurduna getsin. Təbii ki, mərhələ-mərhələ insanların bu arzusu gerçəkləşdiriləcək.

**- Siz parlamentdə Qərbi Azərbaycanlıların statusunun bərpası ilə bağlı təklif irəli sürmüşdünüz. Bu məsələnin aqibəti necə olacaq?**

- Qərbi Azərbaycandan deportasiya zamanı qovulan qaçqınlarımızın statusları heç vaxt ləğv olunmayıb. Bu status Azərbaycan qanunları ilə tənzim olunur. 2001-ci ildən sonra bu qaçqınların müəyyən güzəştləri ləğv olundu. Qayıdış konsepsiyası qəbul olunduqdan sonra, biz artıq Qərbi Azərbaycanla bağlı tariximizin yeni mərhələsinə qədəm qoyduq. Artıq qaçqınların statusu ilə bağlı konsepsiyaya uyğun olaraq dəyişiklik edilməsinin zamanıdır. Buna görə də mən Milli Məclisdə bu məsələni qaldırdım və fikrimin də arxasındayam. Elə hesab edirəm ki, bu qanun konsepsiyanın icrasına və soydaşlarımızın öz doğma yurduna qayıdışı prosesinə töhfə verə biləcək qanun şəklində yenidən nəzərdən keçirilməlidir.

***Ləman Əlizadə***

# Dövlət qulluğuna qəbul imtahanları niyə günü-gündən çətinləşdirilir?

***“Məlum olduğu kimi "Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən Dövlət qulluğu vəzifəsinin anlayışı dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.***




Prezident İlham Əliyevin 2016-cı il 11 aprel tarixli 860 nömrəli fərmanına əsasən, dövlət qulluğu üzrə kadrların seçilməsi üçün imtahanların təşkili, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasına nəzarət, dövlət qulluqçuları reyestrinin aparılması və digər əlaqədar funksiyalar Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin səlahiyyət dairəsinə daxil edilmişdir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Onun sözlərinə görə, dövlət qulluğuna qəbul müsabiqə əsasında həyata keçirilir: ”Müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna qəbul prosesində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə inzibati vəzifələrin təsnifat toplusuna uyğun olaraq dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir. Tələb olunan şərtləri ödəyən namizədlər uğur qazanmış hesab edilir”.

Nadir İsrafilov sözlərinə belə davam edib: ”Test imtahanlarında vəzifə qrupları üzrə toplanması mümkün olan maksimal bal mərkəz tərəfindən müəyyən edilir.Test imtahanının nəticələri haqqında məlumat mərkəzin portalında yerləşdirilir. Namizəd test imtahanmrn nəticələri ilə razı olmadıqda mərkəz tərəfindən yaradılmış apelyasiya komissiyasına şikayət verə bilər. Şikayətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir. Namizəd bu qərardan məhkəməyə müraciət edə bilər.

Əsas məsələ heç də dövlət qulluğuna qəbul imtahanlarına düşən sualların ağırlıq dərəcəsində deyil, baxmayaraq ki, bununla bağlı DİM rəsmilərinin öz arqumentləri var. Nəzərə alsaq ki, cəmiyyətin mənəvi-intellektual inkişafı, sağlam sosial münasibət və ünsiyyət vərdişlərinin formalaşması baxımından elmi və akademik çevrələrlə yanaşı, dövlət qulluğu korpusunun da rolu danılmazdır və dövlət qulluqçuları vətəndaşla dövlətin bilavasitə təmasını təmin edən zümrədir, fərdlərin dövlətin dəyərləri və vətəndaşlara olan münasibəti barədə qənaətləri dövlət qulluqçularının davranışları əsasında formalaşır, deməli, bu halda dövlət qulluğuna seçim zamanı namizədlərin nəzəri bilikləri ilə yanaşı, onların şəxsi keyfiyyətlərinə də xüsusi yer ayrılmalıdır.

Test imtahanından uğurla çıxan, kifayət qədər nəzəri biliklərə sahib olanlar sırasında dövlətçiliklə bir araya sığmayan əməlləri ilə gündəmə gələn ”dövlət qulluqçuları”nın da az şahidi olmamışıq. Heç lədə əbəs yerə deyil ki, hələ ötən ilin sonunda DİM sədri Məleykə Abbaszadə açıqlamalarının birində bildirmişdi ki, ”Dövlət qulluğu ilə əlaqədar çox ciddi dəyişikliklər gedir. Dövlət qulluğuna qəbul imtahanına dəyişiklik edərkən dünya standartlarına da baxırıq ki, etdiyimiz dəyişiklik bizə necə nəticə verəcək. Strategiyamız təsdiqlənib. Bu strategiya çərçivəsində biz kompetensiya modelinə keçməyi nəzərdə tuturuq.” Məsələnin optimal həlli zamana bağlı olub, yaxın gələcəkdə bütövlükdə imtahan prosesinin yeniləşdirilməsin və ən yaxın vaxtlar ərzində isə təkmilləşdirilməsini qaçılmaz edir”.

***Ayşən Vəli***

## “Böyük Əfv Sərəncamının imzalanmasının şahidi olacağıq”



“Əfv Komissiyasının artıq 4 iclası keçirilib. Fevralın 7-də komissiyanın beşinci iclası keçiriləcək. Bu, yəqin ki, may ayına qədər davam edəcək”. Bu sözləri SİA-ya açıqlamasında Əfv Komissiyasının üzvü Rəşad Məcid deyib.

Onun sözlərinə görə, Əfv Komissiyası hər dəfə 100-dən çox müraciətə baxır. Komissiyanın üzvləri fərdi müraciətlər əsasında müzakirə edirlər: ”Burada həm vətəndaş cəmiyyətinin, həm Milli Məclisin nümayəndələri, həm də Əfv Komissiyasının sədri Samir Nuriyev də iştirak edir. Müzakirələr demokratik şəraitdə aparılır. Hər bir müraciətə həssaslıqla yanaşılır. Aprel ayının sonuna kimi davam edilən iclaslarda müsbət rəy verilən sənədlər cənab Prezidentə təqdim olunacaq. Əfv məsələləri Prezidentin müstəsna səlahiyyətinə daxildir. Onun qərarı ilə kimlərin əfv olunacağı aydınlaşdırılacaq. Yəqinki biz Ümummilli Liderin 100 illiyində böyük əfv sərəncamının imzalanmasının şahidi olacağıq”.

***Ləman***

# Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi

*1991-ci il fevralın 5-də üçrəngli Bayrağımız Dövlət bayrağı kimi yenidən qəbul edildi*



***Milli suverenliyin simvolu, qürur mənbəyimiz olan Azərbaycan Bayrağı milli həmrəyliyimizin, vahid məfkurə ətrafında sıx birləşməyimizin başlıca amillərindən biridir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir.***

Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra üçrəngli bayrağımız endirildi. Yalnız 71 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı.

### ”GƏRƏK HƏR BİR EVDƏ AZƏRBAYCAN BAYRAĞI OLSUN, HƏR BİR AİLƏ AZƏRBAYCAN BAYRAĞINA İTAƏT ETSİN”

İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə Azərbaycan Bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”.

Düz 71 il sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən zəkası və əzmi ilə Naxçıvanda dalğalandırıldı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edildi. Qeyd etdiyimiz kimi, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: ”Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı”.

### “BİZİM BAYRAĞIMIZ CANIMIZDIR”

Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməк, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu və rəmzi kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Azərbaycan Prezidenti çıxışlarının birində bildirib: ”Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir”.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır. Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş əzəli, tarixi torpaqlarda da əbədi olaraq dalğalanacaq.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Azərbaycanın Avropa İttifaqı üçün önəmi artır"



“Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkələrin ön sırasında gəlir. Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bugünkü iclasında deyilən fikirlər də bunu deməyə əsas verir. Məlumdur ki, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi fonunda Avropada enerji böhranı yaşandı. Köhnə müqavilələr qüvvədən düşdü, Avropalıların Rusiyadan qaz tədarükü birincilərin tətbiq etdiyi sanksiyalar səbəbindən dayandırıldı. Belə olan halda Azərbaycanın Avropa bazarına daha böyük həcmdə enerji resursları ixrac etməsi gözlənilən idi. Təsadüfi deyil ki, Azərbaycan ötən ildə Avropaya mavi qaz nəqlini 40 faiz artıraraq 11,4 milyard kubmetrə çatdırıb. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, bu gün Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında çıxış edən Avropa İttifaqına üzv ölkələrin rəsmilərinin mövqeləri Azərbaycanın ”Qoca qitə”nin enerji təhlükəsizliyə xüsusi töhfə verən ölkə olduğunu bir daha təsdiqlədi. Məlum olur ki, Avropa hələ uzun müddət Azərbaycanla bu sahədə əməkdaşlıq edəcək. Avropada Azərbaycan qazına da ehtiyac yaranıb. Bütün bunların arxasında Azərbaycanın etibarlı tərəfdaş olmaq prinsipləri dayanır. Qeyd edək ki, Cənub Qaz Dəhlizi birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub. Hər gün Azərbaycanın Avropa İttifaqı üçün önəmi artır. Cənub Qaz Dəhlizi bu gün regionun və Azərbaycanın iqtisadi və strateji maraqlarına cavab verir. Bu, həm də Azərbaycan üçün yeni imkanlar yaradır, perspektivlər vəd edir”.

# Azad edilmiş hansı ərazilərə sakinlərin geri dönəcəyi açıqlanıb




Bu il Laçın şəhəri, Zabux və Sus kəndlərinin, Şuşa və Zəngilan sakinlərinin doğma yurda qayıdışı təmin ediləlidir. SİA-nın məlumatına görə, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsin sədri Rövşən Rzayev komitədə keçirilən kollegiya ixlasında deyib.

O qeyd edib ki, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar qarşıda mühüm vəzifələr durur. ”Onların tam və vaxtında yerinə yetirilməsi üçün bütün imkanların səfərbər edilib. Ölkə rəhbərinin tapşırığına əsasən, bu il Laçın şəhəri, Zabux və Sus kəndlərinin, Şuşa və Zəngilan sakinlərinin doğma yurda qayıdışı təmin edilməlidir”, - deyə o qeyd edib.

# Mədəniyyət küləyi




***Hə, hər şeydə bir mədəniyyət olduğu kimi, məişət tullantılarının da evdən kənarlaşdırılmasında bir mədəniyyət gərəkdir. Əcəba, bu mədəniyyət küləyi hər kəsin yanından ötəndə onun üzünə yumşaq bir şillə kimi toxunubmu?***





Belə görürəm ki, əsla. Zibil atmaqla bağlı mədəniyyət dəxi külək olub çoxları səmtə əsməyib. Ki, şəhərimizdə gördüyümüz mənzərələr bunu demək üçün kifayət qədər əsas verir. Ay camaat, bu zibil məsələsi belədir ki, biz marketlərdən evə daşıdıqlarımızın qalıqlarını, qabıqlarını, işlənmişlərini də eyni qaydada evdən bayıra daşımağa məcburuq. Bu, bizim borcumuzdur.

Şəhərimizin məhəllələrində qarşılaşırıq ki, budur, məişət tullantıları qutuları sıra ilə düzülüb, səliqəli şəkildə. Hətta qapaqlı belə. Ona görə qapaqlı ki, təmizliyə daha çox riayət olunsun, iy-qoxu ətrafa yayılmasın. Biz nə edirik? Evdən çıxırıq, tullantı da əlimizdə, xeyli yol gəlirik, insafən, xeyli. Qutulara çatmağa bircə metr qalmış zibili bu qutuların ətrafına atırıq və elə sürətlə qayıdırıq ki, ya bizi bu qutulardan iyqoxu vurar, ya da ki, kənardan görən olar ki, biz zibili qutunun içərisinə deyil, ətrafına atdıq.

Hələ, maşınla zibil atanlar var ey, onları demirəm. Ay qardaş, bu maşının sahibi niyə zibil qutusunun pedalını sıxmalıdır ki? Kişinin oğlu yeməyib-içməyib özünə bir maşın alıb ki, bir zibildən ötrü maşından aşağı düşsün? Arvad evdən çıxanda əl çəkmir ki, sən canın, bu zibili də at, nə bilim uşaq ağlayır, nə bilim işim çoxdur, çıxa bilmirəm. Bu kişi də evdən çıxdığına şükür elədiyi üçün zibili də götürür ki, aradakı mehribanlığa xələl gətirməsin. Çünki evə tez gəlmək kimi, gec gəlməkzad da olur.

İndi bu adam nə etməlidir ki? Bir dəfə maşına həyətdə minməli, bir dəfə də tullantı qutularının yanında enməli-minməlidir ki, nədir-nədir, zibil atıram? Adam heç qapını da açmır, pəncərədən tullayıb qutuların ətrafına, çıxıb gedir.

Uşaq gedir məktəbə, ya hazırlığa, ana deyir ki, ay bala, enəndə o zibili də at. Uşaq da istəməsə də etməyə məcburdur da, nə etsin. Anadır, sözündən çıxmamaq kimi bir mədəniyyətə malikik. Götürür zibili, ta yolundan qalıb dalana tərəf dönməyəcək ki... Oralarda bir ağacın-zadın altına atıb aradan elə əkilir ki, amandır, görən olar.

Elə olsun, evdar xanımlar, guya onlar uşağı havaya çıxaranda, marketə alış-verişə gedəndə zibili gətirib düz məişət tullantısı qutularının içərisinə atırlar? Niyə də atsınlar ki, əziyyət olmaz məgər? Elə uzaq məsafədən tullayırlar ki, amandır, birdən yaxına gədərik üstümüzə iy-qoxu hopar.

Beləliklə də bir də baxırsan ki, ilahi-pərvərdigara, tullantı qutularının ətrafında bir görüntü var ki, gözlü olasan, görməyəsən, yox əşi, elə yaxşısı budur ki, elə kor olasan, görməyəsən. Onsuz da tullantılar da bəzi ərazilərdə vaxtında götürülmədiyindən orada, necə deyərlər, aləm bir-birinə qarışır. Belə baxırsan-baxırsan, sonra yaxınlıqdakı skamyalardan birində əyləşib fikir eləməyə başlayırsan ki, nə olardı ki, bu mədəniyyət küləyi buralarda da əsərdi də. Axı bu küləklər şəhərində necə olur ki, bir neçə növ küləyin biri bu mədəniyyət küləyini əsdirmir bizə tərəf...

Kaş ki əsdirərdi. Kaş ki... Bayırdan içəri daşıdıqlarımızı necə səliqəli şəkildə aparırıqsa, evdən bayıra gəlməliləri də eyni qayda ilə gətirib bu qutuların içərisinə atardıq. Maraqlıdır ey, vallah, heç təsadüf etmişiniz ki, bir nəfər marketdən gələndə aldıqlarını ağacın altında qoyub evə gedə və yaxud da blokun ağzında, maşının yanında unuda? Əsla görə bilməzsiniz. Bəs belə isə biz o aldıqlarımızın atılmalı olan hissələrini nə üçün küçə-bacaya səpələyirik?

Gedib çatırıq qutuların yanına, bir addımımıza qıyıb onun pedalını sıxıb zibili içəriyə atmırıq, yanına tullayırıq. Maşından enməyin dərdindən maşının pəncərəsindən tullayıb qaçırıq.

Şəhərimizin gözəlliyinə, udduğumuz havaya bu qədər "diqqətlə" yanaşan adamlara nə deyəsən, nə arzulayasan? Arzu etsən ki, zibili qutulara atsınlar, vallah ümidvar olaq ki, bu arzu heç vaxt reallaşmayacaq. Çünki...

Hə, düşündüm və tapdım. Biz belə insanlara yalnız o küləkdən arzulamalıyıq. Beləliklə arzu edirəm ki, şəhərimizə güclü bir mədəniyyət küləyi əssin. Bu külək zibil atmağı bacarmayanların üzünə elə bir şillə vursun ki, bəlkə ayılıb, mədəni olmağı, nəyi hara və necə atmağın düzgün olduğunu dərk edələr. İnşallah ki, o külək yaxınlarda əsər...

***Mətanət Məmmədova***

# İtirilmiş nəsil



**Elçin Bayramlı**

***Son dövrlərdə gənclərin kriminal aləmə, radikal dini qruplaşmalara, kosmopolitizmə, yad dəyərlərə meyli artıb. Bunların çox sayda fundamental səbəbləri var. Cəmiyyətin quruluşu, psixoloji-mənəvi aurası, sosial-iqtisadi vəziyyəti əsas səbəblərdəndir. Əvvəla gənclərin enerjilərini xərcləyəcək yerləri olmalıdır. Sovet dövründə gənclər idmana, yaradıcılıq fəaliyyətinə, texniki mərkəzlərə pulsuz şəkildə cəlb edilirdi. O zaman gənclər asudə vaxtlarını səmərəli keçirirdilər. Onların zərərli meyollərə vaxtları da qalmırdı, cəmiyyət və dövlət isə onlara belə şərait yaratmamışdı da.***

İndi əhalinin 90%-nin imkanı yoxdur övladlarını belə mərkəzlərə göndərsin. Qiymətlər çox bahadır. Ən uzu idman və ya yaradıcılıq kurslarının aylıq abunə haqqı 501-00 manat arasındadır. Bir ailədə azı 2-3 uşaq olduğunu nəzərə alsaq bu orta statistik azərbaycanlı üçün əlçatan deyil. Nəticədə boş qalan yeniyetmələr, gənclər zərərli şeylərə meyil edirlər. Bura narkomaniya da daxildir. Kütləvi şəkildə yayılan belə gəncləri əlimizdən alır. Belə görünür ki, cəmiyyət, dövlət də bunun qarşısını almaqda maraqlı deyil. Əks halda gənclərin birini belə boş buraxmazdıq.

Uşaq və gənclərin mənfi meyilləri məktəblərdə də müşahidə olunur. Şagirdlər məktəbə kitabla yox, smartfonla gəlir. Qızlar kosmetika ilə, oğlanlar bıçaqla, təsbehlə. Təhsil ocaqlarının əlindən tərbiyə funksiyası alınıb. Təhsilin başında yararsız eksperimentlər aparılır. Güya, şagirdyönümlü təhsil sistemi qururuq. Buna görə də məktəblərdə anarxiya yaranıb. Nəticə özünü göstərir.

Gənclər internetdəki biabırçı fəaliyyətlərinə real həyatda da davam edirlər. Bir çox valideynlər övladlarını kiçik yaşdan talehin ümidinə buraxıb. Hər azyaşlının əlində bahalı smartfon var. İnternetdən yaşlarına uyğun olmayan, zərərli materiallara baxırlar. Psixologiyaları alt-üst olur. Təsir altına tez düşürlər.

Valideynlər psixoloqların dedikləri cəfəngiyyatları kənara atıb, uşaqlara köhnə qaydada tərbiyə verməlidirlər. "Uşağa dəymə", "azadlıq ver" deyərək, ortaya belə kütlə çıxarmışıq. Bu da xalqın gələcəyinin indidən məhv edilməsi deməkdir. Media kriminal seriallar, axmaq şoular, zərərli verilişlər nümayiş etdirir. Əvvəllər televiziyalarda uşaqlar, gənclər arasında intellektual yarışlar olurdu. İndi AzTV-dən başqa heç bir kanalda bunu görmürük. AzTV-dəki belə verilişlərə isə valideynlər uşaqlarını baxdırmırlar. Başqa kanallarda intellektual verilişlər demək olar ki, yox dərəcəsindədir - İTV istisna olmaqla. Əvəzində onlara fasiləsiz əyləncə, arsızlıq, eqositlik, özünəvurğunluq, maddiyyata tapınma, pulun yeganə dəyər olduğu təbliğ olunur.

Məktəblərdə baş verənləri, uşaq cinayətlərinin, narkomaniyanın ildırım surəti ilə artmasını görürük. Belə çıxır ki, biz bunları gördüyümüz halda qarşısını almağa ya maraqlı deyilik, ya da acizik. Maraqlı olsaydıq, tədbirlər görərdik. Əksinə, "müasirlik", "azad cəmiyyət" deyərək, "kim nə istəyir etsin" prinsipi ilə hərəkət edirik. Kitab oxuyan, teatra, muzeyə gedən uşaq, gənc görürsünüz ətrafınızda? Demək olar ki yox. Bu halda hansı sağlam gənclikdən danışmaq olar?

Əmin olun ki, 90% gəncin mənəvi, mədəni irsimizdən xəbəri yoxdur. Böyük tarixi şəxsiyyətlərimizdən, dünyanın bu gün də öyrəndiyi alimlərimizdən, filisof-şairlərimizdən, tariximizdən, mədəniyyətimizdən bixəbərdirlər. İnanmırsınız çıxın küçəyə qarşısınızdan gələn 20 gəncə bir neçə sual verin və cavablara baxın. Bu, min illərlə gələn milli-mənəvi dəyərlərimizin qırılma nöqtəsidir. Bundan sonra gələn nəsil sanki bizə aid deyil. Azərbaycanlı olmaq xüsusiyyətini itirirk.

Ümumən, cəmiyyətin ab-havası sonraki nəsilləri formalaşdırır. Bunların günahkarı indiki uşaqlar, gənclər deyil. Günahkar bizim nəsildir. Biz cinayətkar nəsilik. Çünki özümüzdən sonra gələnlərə mənəvi, milli dəyərləri, əxlaqı sistemi ötürə bilmədik. Biz bunu bacarmadıq. Ona görə də, indi uşaqlar, gənclər yad ideologiyalarla böyüyürlər.

Nəsə edə bilərikmi? Əlbəttə! Sadəcə etmək istəmirik. İstəsək, hər şey etmək olar. Gənclərlə bağlı xüsusi dövlət proqramı olmalıdır. Cəmiyyət isə özünə gəlməlidir. Azadlığın anarxiya demək olmadığını artıq həm əyani, həm qiyabi olaraq görmüşük. Əgər sağlam gələcək istəyiriksə, bu işlərə dünəndən başlamalıyıq. Çünki artıq az qala gecdir.

# Qərbi Azəbaycan-qədim vətənə qayıdış!

# Tahir Talıblı: “Mən də çox əminəm ki, türk törəsinin belə bir köçü yurdlara tərəf qatarlaşacaq”



***Bu günlərdə özü qədim obalarımızdan, Qərbi Azərbaycandan, sözü babalarımızdan gələn, tanınmış söz adamı, şair Tahir Talıblı ilə görüşdük, xeyli söhbətləşdik, dağı arana, aranı dağa daşıdıq. Tahir müəllim uzun və böyük həyat yolu keçmiş, zəngin biliyi, geniş və əhatəli təcrübəsi ilə seçilən bir ağsaqqalımız, Tahir Talıblı olaraq tanınmış şairdir. Elə görüşümüzün səbəbi də yenicə çapdan çıxmış ”Söz-söz olunca” adlı kitabı oldu. Otuz illik bir vaxt ərzində Azərbaycan Teleradio Verilişləri QSC-də, Radionun xalq yaradıcılığı redaksiyasının baş redaktoru kimi yaradıcı bir işin qulpundan tutub. Elə o vaxtdan da 54 illik efir yolu keçmiş, tarixi-etnoqrafik-mifoloji yöndə folklorumuzun gələn gələnəklərilə zənginləşən ”Bulaq” verilişinin ssenari müəllifidir.***

***-Tahir müəllim, siz 1988-ci ildə, dədə-baba torpaqlarımızdan, tarixin ədalətsizliyi ucundan yalançı bir Ermənistan qurulan yurd yerlərimizdən deportasiya olunmuş soydaşlarımızdansınız. Özü də tək sıravi bir soydaş yox, o vaxtlardan da tanınan bir şair, məktəb direktoru kimi şərəfli bir vəzifə daşıyan adam kimi nə demək istərdiniz?***

-Əvvəla deyim ki, 1972-ci ildə APİ-nin filologiya fakültəsini bitirib, təyinat yerində bir qədər işlədikdən sonra yurda qayıtmalı oldum. Hər şeyi çalışacam bir qədər qısa danışım. Nə isə, arada əsgərlik və yenə doğma kənd, məktəb. Açığını deyim ki, könlündə bir balaca şeir təlatümü olanlar yaxşı bilir. Adamı Bakı, qəzet-jurnallar, çap olunacaq kitablar çəkir, özü də çox çəkir. Burasını da deyim ki, bir gənc şair kimi özünü təsdiq eləmiş olasan, bir az yekəxana çıxmasın. O vaxtlar dövrü-mətbuata düşmək, çap olunmaq dəvənin iynənin gözündən keçməsi kimi bir iş idi. Çap olunmağa başlamışdım, ”Azərbaycan gəncləri” və digər mətbu orqanlarda. Sonuncu kursda ikən çox adlı-sanlı şairimiz Söhrab Tahir uğurlu yol yazdı. 1978-ci ildə o zaman SSRİ Dövlət mükafatı laureatı Nəbi Xəzri şəxsən tanışlığımız olmadan ”Ədəbiyyat və İncəsənət” qəzetində çox fikirlər yazmışdı. Təbii ki, belə bir vəziyyətdə gənc şairi paytaxt, çap olunmaq çəkməliydi. Amma şəhərə gəlmək asanmı işiydi. Ev-eşik, özünü dolandırmaq, onsuz da çətin dolana bilən ailəyə bir yük olmamaq. Mənim də Bakıya qayıtmaq arzum elə arzu olaraq qalırdı. Günlərin bir günü müəllim olduğum Evli kənd orta məktəbində direktor yeri boşaldı. Məni o zamankı Kalinino rayonu RXMS-in müdiri təcili çağırdı və dedi ki, yuxarılarla da razılaşdırılıb, səni direktor təyin eləyirik. Açığı mən etiraz elədim, şəhərə köçmək istəyimi önə çəkdim. Söhbət elə bil ki, bu gün olub. Maarifin müdiri mənə nə desə yaxşıdı:

-Ay mart, -dedi, bir var Bakıya məktəb direktoru kimi gedəsən, bir də var müəllim kimi, sənə şans yaranıb, -dedi. Nə başınızı ağrıdım razılaşmalı oldum. O razılıq, bu razılıq, 1988-in deportasiyasına qədər qaldım. Adlı-sanlı bir məktəb yarada bildik. Geniş danışmağa yer yoxdur. Kabinet sistemli bir tipik məktəb, dövlət tədbirləri-zadı olanda birinci-İrəvan 3 nömrəli şəhər məktəbinin, ikinci bizim Evli kənd orta məktəbinin adı çəkilirdi. Onu da deyim ki, orada özüm üçün yaxşı bir ev də tikdim. İndiki villalara oxşamasa da, əsl ev. Amma Bakı, qəzetlər, şeir yadımdan çıxmırdı. Bir gün atama fikrimi açıq dedim. Nə desə yaxşıdı? Dedi ki, köçürəm demə, yurdun eşidər, satıram demə, evin eşidər. Hə, indi gəl bu sözün qabağından qaç, görüm necə qaçırsan.

Bir gün mənə bir tanınmış rejissor zəng elədi, görüşmək istədi, görüşdük. Dedi ki, erməni deportasiyasından film edirəm, istərdim ki, sən bir ziyalı adam kimi, qələm adamı kimi filmin lap əsasında olasan. Suallar verdi, cavabladım. Gördüm ki, bu adamı reallıqlardan, olmuşlardan daha çox öz içində qurduğu ideya maraqlandırır. Təhdidlər, ölümlər və s. Düzdü, bəzi bölgələrdə belə qanlı-qadalı olaylar olmuşdu. Ama bizim bölgədə belə bir şeyin olması mümkün deyildi. Birincisi ona görə ki, Calaloğlu-Canbaxça-Kalinino, bir az geniş desək Loru-Pəmbək zonasında xalqımız çoxluq təşkil edirdi, kompakt yaşayış təminiydi. İkinci bir tərəf Amasiya-Ağbaba Türkiyə sərhədləri, bu biri baş isə Borçalı. Erməni vəhşətinin çəkinəcəkliyi bundan yanaydı. Burasını da deyim ki, köçdən az sonra bir balaca sakitlik oldu. Evlərimizi dəyişmək üçün şans yarandı. Qonşu kənddə Noraşendə atamın tanıdığı olan erməni ailəsi vardı. Biləndə ki, müvəqqəti qayıtmışıq, gəlib bizi evinə apardı. Atam həmişə bu fikirdəydi ki, bu ailə, xüsusən evin kişisi türkdü. Qənaəti beləydi. Nə isə, dedilər ki, gecələr bütün kənd bir evə yığışır, qorxudan, yəni bizlərin qorxusundan. Çünki, ruslar, rus əsgərləri onları qorxudurdu ki, deməzsən ehtiyatlı olun, türklər sizi qıra bilər, nə bilim nə...

***-Tahir müəllim, siz Qərbi Azərbaycanda, indiki Ermənistanda da görünən, ziyalıydınız, vəzifə adamıydınız. İstərdik ki, bir qədər ətraflı danışaq, erməni vəhşəti necə törəyirdi, bizim xalqa qarşı təbliğat, eləcə də, təxribatlar qarşıdurmalar, təhqirlər necə baş verirdi?***

-Yenə də sağ olun, geniş izah tələb eləyən sualdır. Mən desəm ki, bu iki xalqın yanaşı yaşaması mümkündür. Kim istəyir məni qınasın. Düzdür, düşmənçilik çox dərinə işləyib. Amma mən qızışdırıcı mövqenin tam əleyhinəyəm. Bu iki xalqın düşmənçiliyin əsl səbəbi bilməsi labüddür. İndi çox tarixə getməyin, nəyi isə izah etməyin burada yeri yoxdu, mənim yaradıcılığımda, eləcə də 30 illik bir müddətdə müəllifi olduğum ”Bulaq” verilişində tarixi aspektləri, əsl həqiqətləri gen-bol araşdırıb, Ermənistanda qalan bütün toponimlərin bizim olduğunu, o yerlərdə tarixin bizim doğma ruhumuz olduğunu, ümumilikdə tarixin türkcə danışdığını dəfələrlə yazmışam, qələmə almışam. Qısaca deməliyəm ki, erməni vəhşəti körüklənmiş bir vəhşətiydi, elə indi də körüklənir. Rejimin mahiyyətindən doğan bir məsələdir, erməni məsələsi rus işinin tərkib hissəsidir. Bu mövzuda saatlarla danışmaq olar.

Sizin dediyiniz sualların cavabını hələ o vaxt 1989-cu ildə işlədiyim ”Yeni Fikir” qəzetində geniş yazmışdım - ”El yeridi”. O vaxtlar bu yazı geniş rezonans doğurdu. Daha başqa dövrü-qəzetlərdə, nəşr olunan kitablarda yayımlandı. Qısaca nə demək istərdim. Anlamalıyıq ki, erməni deyilən məkrli və qorxulu düşməndir. Onu aciz, zəif bilməli deyilik. Zəiflər daha qorxulu olur unutmamalıyıq. Bir də ona görə ki, başı öz əlində deyil. Başı özgə əllərdə olan düşmən qorxuludu. Ondan nə desən gözləmək olar. Yaddan çıxarmalı deyilik ki, erməni bizlə, türk deyilənlə tək bir sahədə döyüşmür. Təhsilimizi də, səhiyyəmizi də, ideoloji düşüncəmizi də, dövlətçiliyimizi də, suyumuzu, havamızı da ayıq-açıq qorumaq zorundayıq. Təxribat düşmənin ən böyük silahıdır. Unutmamalıyıq ki, erməni deyilənin bir qorxulu silahı da ”erməni silahı”dır. Bu silah haqqında dediyim yazıda geniş danışmışam. ”Erməni silahı” özünü-özünə qarşı qoymaqdır, həm də. O müdhiş silah həmişə əllərində hazırdır.

O vaxt Sumqayıt hadisələri zamanı, hər bir özünü erməni bilən adam girişmişdi təbliğata ki, siz də bizə qoşulub Sumqayıtda olan olaylara etiraz eləyin.






**FOTODA: Qərbi Azərbaycanın Calaloğlu mahalı, Evli kəndi**



Boynumuza qoymaq istəyirdilər ki, bu hadisələri türklər eləyib. Deyim ki, bir nəfərə də bunu dedizdirə bilmədilər. Bir dəfə bir erməni əhatəsində maarifdə bir söhbətdə dedim ki, türkləri günahlandırdığınız bu işi sovet-rus KQB-si öz əllərinizlə törədib. Başa düşəni başa düşdü ki, məsələ nə yerdədi.

Bax, Rövşən, bir gün sənin dostun Savalan dedi ki, ata, mən bağçaya getmirəm. Niyə-dedim. Uşaq ağlamsındı - bir uşaq mənə dedi ki, sən Ermənistandan gəlmisən, ermənisən. Ermənisən deyən, o körpə uşağın əlindəki əsl erməni silahıydı, balacasından olsa da. O silah o uşaqla birgə böyüyə də bilərdi. Nə isə...

Deportasiyanın səbəblərindən biri bu idi. Sumqayıt hadisələrinin günahkarı kimi azərbaycanlıları, dedikləri kimi türkləri, yəni özümüzü günahkar bilmək. Bu, mümkün olmadı. ”Erməni silahı”nı bizə sırıya bilmədilər. Deportasiyalar kütləvi şəkildə beləcə başladı. Bəzi bölgələr də ölümlər də, o cümlədən...

Elə hesab etməyin ki, erməni ictimaiyyəti arasında düzgün düşünən, sağlam fikirli adam yox idi. Sadəcə olaraq toplum, xalq zəhərlədilmişdi. Yenə də deyirəm körükçü, baş memar şər imperiyasının özü idi.

Vaxt-bivaxt bu qurduğu, yaratdığı düşmənçilik öz işinə yarayırdı. Bunu da deyək ki, bizlər, xalqımız Ermənistanda heç vaxt aciz durumda olmayıb. Haqqını bilib. Təşkilatlar qarşısında həmişə tələbini eləyib, sözünü deyib. Yeridir, deyim ki, məktəbimizin bir neçə müəlliminin, o cümlədən bəndənizin, sovet və yüksək mərkəzi orqanlara təklə, dönməzliklə yazdığımız şikayətlər əsasında Kalinino rayon partiya komitəsinin birinci katibini işdən, vəzifəsindən qovdurmuşuq, bu barədə o zamankı ”Pravda” qəzeti 1978-ci il 5 may sayında yazmışdı. Bu məsələni bilənlər çoxdu. Daha geniş yazmağa nə hacət?

Sumqayıt hadisələrindən xeyli əvvəl raykomun birinci katibi Villi Surenoviç İsraelyan məni qəbul elədi. İkilikdə xeyli söhbətimiz oldu. Erməni məkrinin yenicə baş qaldıran vaxtı idi. Katib mühüm bir olmuşu danışdı. Dedi ki, Mərkəzi Komitədə bir plenum oldu, əsas məsələ azərbaycanlıların Ermənistandan çıxarılması idi . Bütün çıxışçılar təkidlə azərbaycanlıların qovulmasını istədilər. Mənim də çıxışım oldu. Belə məkrli məsələnin çox yanlış olması haqda danışdım. Azərbaycanlılar Ermənistanın təsərrüfat həyatında mühüm yer tutur,- dedim. Elmi və məntiqi cəhətdən bu məkri pislədim. Ermənistan üçün çox böyük ziyanla bitəcəyini dedim. Zala qayıdıb yerimdə əyləşmək istəyəndə, yanaşı oturduğumuz tanınmış erməni aktyoru, xalq artisti Soşe Sarkisyan məni ağır şəkildə söydü. Daha doğrusu, ermənicə millətimi söydü. Onu da deyim ki, ermənilər arasında, özləri-özlərinin də millətini söyməyi çox geniş yayılmış işdi. Anidən yaxalaşdıq. Sonra saqqallılar o katibi kabinetindən döyə-döyə çıxardılar, sonra necə oldu, bilmədik. Çox az olsa da, belə adamlar ermənilər arasında yenə də var. Ama ermənilərdə kütləvi psixoz vəziyyəti hökm sürür.

*-Tahir müəllim, uzun müddətdir ki, Bakıda yaşayırsız. Fəaliyyətinizi mətbuatla bağladınız. Bir neçə qəzet və jurnalda əməkdaş oldunuz. 1995-ci ilin fevralından Azərbaycan Teleradio Verilişləri QSC-də çalışdınız, Radionun Xalq Yaradıcılığı redaksiyasının baş redaktoru, bir-iki ildir ki, təqaüddəsiz. Yenə "Bulaq" verilişinin başında dayanmısınız…*

-Təşəkkürlər, mənim bütün həyatımı, fəaliyyətimi ələk-vələk elədiniz. Nə qədər qısa danışmaq istəsəm də, alınmır. Görünür, daha bir kitab yazmağa ehtiyac var. Həm də artıq yaş o yaş deyil. Deyim ki, rəhbəri olduğum Xalq yaradıcılığı redaksiyası bu uzun vaxtda çox işlər gördü, dərin folklor yatırımları elədi. Bir-bir sadalasaq, başa çatmaz. Əlbəttə, böyük işləri əsl mütəxəssislərlə eləmək mümkündür. Redaksiyamızın əməkdaşları arasında tanınmışların adlarını çəkmək istərdim, tanınmış yazıçı Məmməd Oruc, çox dəyərli elm yüklü, elmi düşüncə adamı, əvəzsiz şair, rəhmətlik Əhməd Oğuz. Mən on ilə yaxın bir müddətdə məktəb direktoru olduğumda, özüm üçün bir həqiqəti hasil elədim. Yüksək səviyyəli müəllim heç vaxt işə əngəl törətmir, sabotajlıq etmir, heç fikrindən də keçirmir ki, səni yıxıb başa keçsin. Amma zəif, savadsız müəllimin gecə-gündüz fikri-zikri kollektivdə qarışıqlıq salmaq, dedi-qodu yaratmaq, hətta başa çıxmaqdır. Deyir - ”canavar qoyunun heç vaxt yadından çıxmır. Tək qırxılıq altda canavarı unudur”.

**FOTODA: ”Bulaq” Xalq yaradıcılığı verilişinin yaradıcı heyəti**



Mən həmişə özümdən qat-qat savadlı olanlarla işləməyi üstün bilmişəm. Redaksiyaya cəlb elədiyim, həm əməkdaş, həm müəllim kimi öyrəndiyimiz alimlərimizin bir neçəsinin adını burada çəkmək istəyirəm. Professor Minəxanım Təkləli, Şamil Vəliyev, Əli Şamil uzun müddət redaksiyamızın xətti ilə verilişlər apardılar. Firudin Ağasıoğlu min illəri qabaqlayan elmi biliyi ilə verilişlərimizə yaraşıq verirdi.

Təbii ki, ”Bulaq” verilişi haqqında daha geniş danışmaq yerinə düşər. 54 illik efir həyatı. Dünya efir tarixində, məncə bu qədər uzunömürlü veriliş yoxdur. Səbəbi budur ki, hələ Sovet rejimi zamanı ərsəyə gələn bu veriliş xalqın bağrından qopub gəldi, bir ”Bulaq” oldu. Demək olar ki, Güneydə elə bir ev, ailə olmaz ki, ”Bulağ”ı dinləməsin, sayları lentə alınmasın. Hətta soydaşlarımızın çoxundan eşitmişik ki, Güneydə ”Bulaq” yaranan gündən hər sayını lentə alıb saxlanc kimi qoruyan insanlar, ailələr var. Əgər sizdə hansı sayı yoxdursa, göndərə bilərik,-deyirlər. Bu, böyük, ümumxalq işinə çevrilmiş məsələdir. Burada daha savadlı sözlər söyləməyə ehtiyac qalmır. Rəhmətlik Nəsir müəllim, Nəsir Əhmədli yazılarının birində demişdi ki, ”Bulağ”ın dili əsl Azərbaycan ədəbi dilidir.

*-Tahir müəllim, nə əcəb "Bulağ"ın saylarını disk-kaset şəklində dövriyyəyə vermirsiniz. Bu çox savab iş olardı. Camaat, elə deyək ki, avtomobillərdə, elə hər yerdə bayağı mahnıları dinləməkdən beziblər. Bu işi eləmək yaxşı olmazmı?*

- Deyim ki, ”Bulağ”ın saylarının kaset şəklində buraxılması verilişin sahibi AzTV-yə böyük qazanc gətirə bilər. Bunu çox təklif eləyənlər olub. Bu məsələ zaman-zaman gündəliyə gəlsə də, hələlik, həllini tapmayıb. İnanıram ki, bu layihə yaxın zamanlarda reallaşa biləcək. Düzdür, bu günlərdə bir-iki aylıq təqaüdümün hesabına ”Bulağ”ın ssenarilərindən ibarət bir kitab nəşr etdirə bildim. Bu addım yetərli olmasa da, bir ilk kimi maraq doğura bilər - ”Söz-söz olunca” kitabımda.

*- Sizin Azərbaycanın görkəmli ictimai və dövlət xadimi, Azərbaycanın səhiyyəsinin qurucusu Əziz Əliyevin həyat və fəaliyyətindən bəhs edən bir monoqrafiyanız da var.*

- Elədir. Kitab 1997-ci ildə kirillə çap olunub, çox təəssüf ki, indiyə qədər latın qrafikası ilə yayımlanmayıb. Bir az qeyri-təvazökar çıxmasın, bu, bir tədqiqat kitabdır.

Azərbaycanın və Dağıstanın arxivlərindən götürülmüş faktlar əsasında işlənib. Bir də dədə-baba yurdlarımızın, İrəvanın tarixinə dair xeyli materiallar yer alıb. ”Yeni Fikir” qəzetində o vaxt çox qəribə, tarixi əhəmiyyəti olan bir şəkil vermişdik. 1901-ci ildə ”İrəvan Şeyxinin dəfni” adlı fotonu,-deyirəm. Fotodan görünür ki, İrəvan Şeyxinin dəfni geniş dövləti tədbirdir. Dəfn mərasimində bir çox ölkələrin bayraqları görünür fotoda. Fotonu o vaxt çox dəyərli ziyalımız əslən irəvanlı şair Ramiz Heydər təqdim eləmişdir. Babasının arxivindən qalan bir foto idi. Ramiz müəllimin təqdim elədiyi ”İrəvan şeyxinin dəfni” fotosunu Əziz Əliyevin kitabında da verdim. Çox dəyərli və tarixi faktdır.

*-Cənab Prezident İlham Əliyev bu yaxınlarda Qərbi Azərbaycan icmasının nümayəndələri ilə görüş keçirdi. Bu görüşün sonrakı proseslərə necə təkan verəcəyini düşünürsünüz?*

-Təbii ki, müsbət haldır, aktual məsələdir. Bu, onu göstərir ki, dövlət öz vətəndaşlarına, soydaşlarına sahib çıxmağın həmişə fərqindədir. Bir qədər yuxarıda da dedim - ömürlük düşmənçilik mümkün olmayan məsələdi. Tarix-tarix olandan sübutu dəfələrlə görünüb.

**Bir də böyük mütəfəkkir şairimiz Hüseyn Cavid demiş:**

”Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü”.

İndi cəmi soydaşlarımızın qarşısında dədə-baba yurdlarımıza qayıtmaq missiyası durur. Bu da bizlərin qarşısında tarixin qoyduğu bir öhdəlikdirmi deyim, bir borcdumu. Sağlıqlar olsun. Sabahlara yol dünənlərdən adlayıb, bu günlərdən keçir. Əks halda tarix həm də amansızdır. İntiqamı kəskin olur.

Yadıma Dadaloğlunun bir qoşqusu düşdü:

Qalxdı köç eylədi Avşar elləri,
Uca dağ başından aşan yollar bizimdi.
Arab atlar yaxın eylər uzağı,
Ağır-ağır gedən ellər bizimdi.
Kirmanidi, qılıncımız kirmani,
Dağı dələr qılıncımın təməni.
Haqqımızda padşah vermiş fərmanı,
Fərman padşahındı, dağlar bizimdi.

Mən də çox əminəm ki, türk törəsinin belə bir köçü yurdlara tərəf qatarlaşacaq. Amma bu köç, bu köçürülmə öz təbii axarından sonuclanacaq. Tarixdəki digər köklər kimi. Elə Avşar kökü kimi.

*-Tahir müəllim, maraqlı söhbət üçün çox sağ olun. Bir daha yenicə çapdan çıxmış "Söz-söz olunca" kitabını, eləcə də az vaxtdan sonra yetişəcək 75 illik yubileyinizi, ad gününüzü qabaqcadan təbrikləyirik, qutlu olsun deyirik.*

-Minnətdar oluram, ”Bulaq dədəni” ”Səs” qəzetinin oxucuları ilə görüşdürdüyünüz üçün.

***Müsahibəni aldı***
***Rövşən RƏSULOV***

# Media reyestrinə qara PR hücumu: kimlər narahatdır?

***Mövzuya daxil olmadan öncə belə bir fikri önə sürmək yerinə düşərdi: cəmiyyətdə təqribən bu cür düşüncə formalaşmağa başlayıb ki, fəaliyyətində uğur qazana bilməyənlər həmin uğursuzluğunun səbəbini başqalarında axtarmağa başlayırlar. Yəni özünü günahlandırmaq prinsipi belələrində mövcud deyil. Xüsusilə, jurnalistikanın "J", medianın "M" hərflərini belə yaza bilməyənlərin özlərinə "jurnalist" adı qoyub "vəsiqə" düzəldənlər, sonradan isə sinəsinə döyə-döyə "o obyekt sənin, bu obyekt mənim" deməklə, gerçək jurnalistikanın adını ictimai rəydə bədnamlıq səviyyəsinə qədər endirənlər həmin "zümrəyə" aiddirlər.***

Tələb olunan əsas faktor jurnalistlik fəaliyyətinin media reyestri tərəfindən rəsmiləşdirilməsi, jurnalist kartının əldə edilməsidir, bu qədər bəsit!

Ölkədə medianın inkişafı və jurnalistlərin fəaliyyətlərinin daha geniş spektorda təmin olunması istiqamətində son illərdə kifayət qədər mühüm işlər həyata keçirilib və bu, danılmaz faktdır. Həmin faktları yenidən sadalamağa da ehtiyac yoxdur. İnternet resurslarında informasiyalar hazırda da qalmaqdadır. İstər jurnalistlərin sosial-məişət həyatlarının yaxşılaşdırılması, istər bank və s. kimi məsələlərdə imtiyazlardan istifadə, istərsə də peşə fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün yaradılan şərait - bütün bunlar ayrı-ayrılıqda geniş, əhatəli mövzulardır.

Və belə bir yerdə tələb olunan əsas faktor jurnalistlik fəaliyyətinin media reyestri tərəfindən rəsmiləşdirilməsi, jurnalist kartının əldə edilməsidir, bu qədər bəsit! Tələb edilən sənədlər - fəaliyyət göstərdiyin media qurumundakı fəaliyyətinin müddəti, həmin media qurumunun da reyestrdən keçməsi, təhsil aldığın hər hansı bir müəssisənin diplomu və s.

**Ya Reyestrdən keçə bilməyən, ya da qəsdən reyestrdən imtina edənlər hansısa maraqlarının əlindən çıxacağını düşünməklə sübut edirlər ki, əslində, onlar jurnalistikanın qara ləkələridirlər**

Beləliklə, həmin tələblərə cavab verməyən, real jurnalistlik, sayt işlətmək fəaliyyətindən şəxsi mənfəəti üçün istifadə edənlərin canlarına, sözün əsl mənasında, vəlvələ düşüb. Ona görə də əllərində olan son ümidlərini - sosial medianı əsas platformaya çevirməklə qara PR kampaniyasına start veriblər. Amma gəlin görək, ortada hər hansı bir həqiqət çağırışımı deyək, məntiqli tələbmi, iradmı deyək, yaxud daha təfsilatlı təşəbbüsmü deyək - onlardan biri varmı, mövcuddurmu?

Fakt budur ki, ”Media haqqında” yeni qanun bir ildən çox bir müddətdə, yəni 2021-ci il dekabrın 30-da qüvvəyə minib. Qanunun müvafiq tələblərinə uyğun olaraq, ötən ilin oktyabrından etibarən media subyektlərinin və jurnalistlərin 6 ay müddətində reyestrdən keçməsi tələb olundu. Demək olar ki, bir çox həmkarlarımız reyestrdən keçdilər və peşə fəaliyyətlərini rəsmiləşdirdilər.

Üstəlik, tələb edilən prosesin asanlaşdırılması üçün MEDİA kifayət qədər müddətdə təbliğat kampaniyasına start verdi. TV-lərdə, radio efirlərində, internet resurslarında, sosial media şəbəkələrində hər gün (!) maarifləndirici məqamlar diqqətə çatdırıldı. Paralel olaraq yaranan suallar üçün belə MEDİA tərəfindən müvəqqəti təsis edilmiş ayrıca struktur fəaliyyət göstərdi ki, anlaşılmayan heç nə qalmasın. Amma kimə deyirsən? Ya Reyestrdən keçə bilməyən, ya da qəsdən reyestrdən imtina edənlər hansısa maraqlarının əlindən çıxacağını düşünməklə sübut edirlər ki, əslində, onlar jurnalistikanın qara ləkələridirlər.






***Bu gün özlərini az qala "aparıcı media adamı" kimi zorla ictimai rəyə sırıyan belələrinin, əslində, gerçək media cameəsindən istər hüquqi, istərsə də mənəvi tərəfdən ayrı düşmələri real jurnalistikamıza geniş yol açır, yaşıl işıq yandırır!***









**Dəfələrlə Mətbuat Şurasının qara siyahısına düşənlər**

Görünür, ona görə də sosial şəbəkələrdə uğursuz qara PR kampaniyalarına başlayıblar. Bu minvalla ”icazəli media bizə lazım deyil”, ”fəaliyyətimizə maneələr yaradılır” tipli cəhdləri ilə var-gəl etməkdədirlər. Kimlərdir onlar? Dəfələrlə Mətbuat Şurasının rəyi əsasında qara siyahıya düşən, ”beş manat”a satılan, şantaj və şər-böhtan yayan fərdlər, eləcə də onların ”media qurumları”, dövlət maraqlarına qarşı çıxanlar və adlarını ”müxalifətçi jurnalist” qoymaqla, əslində, tamamilə başqa qaranlıq məqsədlərə xidmət edənlər və s

**Artıq Azərbaycan mediasındakı üz qaraları qapı-qapı gəzib o müdirin, bu şirkət rəhbərinin, filan zavod direktorunun, behmənkəs müəllimin cibinə girməyəcəklər**

Bu gün özlərini az qala ”aparıcı media adamı” kimi zorla ictimai rəyə sırıyan belələrinin isə, əslində, gerçək media cameəsindən istər hüquqi, istərsə də mənəvi tərəfdən ayrı düşmələri real jurnalistikamıza geniş yol açır, yaşıl işıq yandırır.

Artıq Azərbaycan mediasındakı üz qaraları qapı-qapı gəzib o müdirin, bu şirkət rəhbərinin, filan zavod direktorunun, behmənkəs müəllimin cibinə girməyəcəklər. Yaxud istədiklərini qoparda bilmədikləri üçün böhana, şərə əl ata bilməyəcəklər. Çünki əsl jurnalistika fəaliyyətini təsdiq edən reyestrdə onların adları olmayacaq.

Yeri gəlmişkən, ayrı-ayrı işgüzar şəxslər də artıq onların qapılarını döyən və pul-para tələb edən ”jurnalistlərin” ayaq açıb yürüməmələri üçün qəti qərarlarını verməli, əks halda isə müvafiq hüquqmühafizə orqanlarını məlumatlandırmalıdırlar. Nəhayət, mətbuatımızın təmiz ruhda, vicdanla çalışmasına mühit yaradılıb!

***Rövşən RƏSULOV***

*Türkər demiş, dünyanın tansyonu qalxıb, nə etdiyimi bilmir, dövlətlərin yox, ayrı-ayrı siyasətçilərin əlində əsir-yesir qalıb. Baydenin, Putinin, Si Cinpinin və digər dünya liderlərinin iddaları dünyanı sonu görünməyən bir uçurumun kənarına sürükləyib. Əcəba, bunların əllərində olan imkanlar yalnız dağıtmağa, məhv etməyəmi köklənib? Məgər başqa yolla insanlığı xilas etmək olmazmı? Dünyanın yenilənməsi, yeni düzənə gətirilməsi, yeni münasibətlərin yaranması üçün seçilmiş yol budursa, burada ağıldan çox gerizəkalılığın işartılarını görə bilərik. Pandemiya dünyanı dezinfeksiya edə bilmədi, çirklənmiş atmosferin təmizlənməsindən də danışmağa dəyməz. Əlimizdən dünyada baş verənləri oxuculara çatdırmaq, bir az da analiz etmək gəlir. Qalanı dünya güclərinin boynuna...*

# Dünya nəyin astanasında?



*Rusiya-Ukrayna (NATO) bataqlığı, Çinin ətrafında daralan çəmbər, tələdəki İran, Avropa-Türkiyə diplomatik qalmaqalı, Cənubi Qafqaz qeyri-müəyyənliyi və s...*

### Ukrayna-Rusiya savaşında F-16 sifarişi

Putin ABŞ və Avropa ölkələrinin Ukraynaya tank göndərməsinə nüvə müharibəsinə eyham vurmaqla cavab verib və bununla da Moskva növbəti hədəfini açıq şəkildə bildirib. Xarici mətbuat isə Putinin ürəkləri sıxacaq "B" planından yazıb. 344 gün əvvəl Ukraynaya hücum əmrini verən Rusiya lideri Vladimir Putin Qərb ölkələrinin cəbhə xəttinə "Leopard" və "Abrams" tanklarını göndərməsinə ilk dəfə münasibət bildirib. Putin Stalinqrad döyüşündəki qələbəsinin 80-ci ildönümü üçün Volqoqrada gedib, 85 metrlik nəhəng "Vətən çağırır" heykəli önünə gül dəstələri qoyduqdan sonra konsertdə çıxış edib. "Agence France-Presse" (AFP) xəbər verir ki, Putin burada İkinci Dünya Müharibəsi ilə Ukrayna münaqişəsi arasında paralellər aparıb və nüvə silahından istifadə edə biləcəyi barədə açıq mesajlar verib.









Ukrayna bataqlığında hələ də çapalayan Rusiyanın tarixi qələbədən istilaya dəstəyi artırmaq üçün istifadə etdiyini qeyd edən AFP Rusiya liderinin öz göstərişi ilə başlayan işğalı faşist Almaniyasına qarşı müharibəyə bənzətdiyini yazıb. "Ruslar bütün yolu getməyə hazırdır" deyən Vladimir Putin Ukraynaya silah yardımı gətirənlərə xitabən bunun nüvə təhlükəsi yaratdığına işarə vurub. "Biz onların sərhədlərinə tanklar göndərmirik, lakin cavab verəcəyimiz bir şey var, bu, təkcə zirehli texnikadan istifadə etmək deyil. Bunu hamı başa düşməlidir. Rusiya ilə müasir müharibə tamamilə fərqli olacaq. İnanılmaz, lakin həqiqətdir. Bir daha biz alman "Leopard" tankları ilə təhdid edilirik" - deyə Putin bildirib.

AFP xatırladır ki, 70 yaşlı Rusiya lideri 2022-ci il fevralın 24-dən bəri dəfələrlə Qərbi nüvə silahı ilə hədələyib. Digər tərəfdən, BBC bildirir ki, Putin heykəlin üzərinə əklil qoyarkən, əsgərlər və məxfi xidmət agentləri istisna olmaqla, ictimaiyyətdən bir nəfər də olsun orada olmayıb və Sankt-Peterburqdakı qəbiristanlıq ziyarəti ilə tam eynidir.

Qərb ölkələri Putinin təhdidlərinə baxmayaraq, Kremlin tündünü kəsəcək yeni addıma işarə edib. ABŞ, Avropa Birliyi və İngiltərə kimi ölkələrdən F-16 döyüş təyyarələrinin Ukraynaya göndərilməyəcəyinə dair siqnallar olsa da, mətbuat Vaşinqtonun "B" planının olduğunu da dünyaya açıqlayıb. Xəbərə görə, prezident Co Bayden F-16 təyyarələrinin Ukraynaya göndərilməyəcəyini bəyan etsə də, Pentaqonun alternativ planı təyyarələrin üçüncü ölkələrə göndərilməsinə icazə verə bilər. Vaşinqtonun hazırda Ukraynanın hücum silahları ilə təchiz edilməsinə diqqət yetirdiyini vurğulayan mənbə yazıb ki, digər tərəfdən ABŞ üçüncü ölkələrin F-16-ları Ukraynaya təhvil verməsini də diqqətdən kənarda qoymur. Polşa, Hollandiya və Fransa kimi ölkələr F-16-ların Rusiyaya qarşı istifadə olunmasını arzulayır. İngiltərənin son açıqlamaları əvvəlkilər qədər kəskin deyil. Böyük Britaniyanın müdafiə naziri Ben Uolles bildirib ki, ötən ilə nəzər saldıqda heç nəyə göz yuma bilməyəcəyimiz ortadadır. Baş nazir Rişi Sunak isə döyüş təyyarəsindən istifadənin aylarla təlim tələb edəcəyini və buna görə də ilk addımı tankları göndərərək atdıqlarını bildirib. İngiltərənin F-16 qırıcıları yoxdur, Tayfun (Typhoon) və F-35 döyüş təyyarələri var.

İşğal başlayandan bəri iki dəfə İsraillə böhran yaşayan Rusiyanın xarici işlər naziri Sergey Lavrov cümə axşamı verdiyi açıqlama ilə bu dəfə Balkanları silkələyib. Rusiya mətbuatına açıqlama verən Lavrov Ukraynanın cənub qonşusu Moldovanın Kiyevdən sonra müharibə ocağına çevriləcəyini bildirib. Moldova lideri Sandunun Rusiyaya qarşı açıq düşmənçilik siyasəti yürütdüyünü deyən Lavrov Kişinyov administrasiyasının NATO-ya üzv olmaq istəyini "düşmənçilik" nümunəsi kimi təqdim edib. Sandunun Qərbin istədiyi hər şeyi etməyə hazır olduğunu da əsaslandıran Sergey Lavrovun sözlərinə görə, Rumıniya vətəndaşlığı olan qadın liderin arzusu Moldovanı Rumıniyaya birləşdirməkdir.

Kişinyovun da Rusiya xarici işlər nazirinə cavabı çox da gecikməyib, Moldova Xarici İşlər Nazirliyi Lavrovun sözlərini təhdid kimi qiymətləndirib və onu pisləyib. Sergey Lavrovun Moldovanı "növbəti Ukrayna" olaraq xarakterizə etdiyini deyən Kişinyov xalqın NATO-ya üzvlük kimi qərarları dəstəklədiyini qeyd edib. Qeyd edək ki, Moldovada Rusiyanın Ukraynaya təcavüzü ilə əlaqəli Rusiyanın hərbi simvolu, Müqəddəs Georgi lenti və Z işarəsi ictimai yerlərdə qadağandır. Moldova lideri Sandu Avropa İttifaqının güclü müdafiəçisidir, lakin onun sələfi İqor Dodon rusiyayönlü idi.

Hazırda Avropanın ən kasıb ölkələrindən biri olan Moldova 1991-ci ildə Sovet İttifaqının dağılması ilə müstəqilliyini elan edib. Ukrayna ilə 940 kilometr quru sərhədi olan Moldova xüsusilə Rusiyanın dəstəklədiyi separatçı Dnestryanı bölgə səbəbindən müharibənin öz ərazisinə sıçrayacağından narahatdır. 2022-ci ilin aprelində Dnestryanıda baş verən müəmmalı partlayışlar dünyanın gözlərini Dnestr çayı ilə Ukrayna sərhədi arasındakı separatçı bölgəyə çevirməsinə səbəb oldu. Bu hadisə Ukrayna partlayışları arxasında rusların olduğu "yalançı bayraq" əməliyyatı kimi qiymətləndirildi. Üstəlik, rus generalı Rüstəm Minnekayev müəmmalı partlayışlardan bir neçə gün əvvəl demişdi ki, Ukraynanın cənubuna nəzarəti ələ keçirmək Dnestryanıda məzlum rusdilli əhali üçün çıxış yoludur. Moskvanın dəstəklədiyi separatçı bölgə 1990-cı ildə Moldovadan ayrıldığını, müstəqilliyini elan etsə də, beynəlxalq səhnədə rəsmən tanınmayıb. Moldova ilə Dnestryanı arasında 700-ə yaxın insanın həlak olduğu qısamüddətli müharibədən sonra 1992-ci ildə atəşkəs imzalanıb. Rusiya qoşunları Ukraynanın əsas liman şəhəri Odessadan bir qədər qərbdə, Dnestryanı bölgəyə yerləşdirilib. Bu gün separatçı zonada 1500-ə yaxın rus əsgəri var.

Nə NATO, nə də Avropa Birliyinin üzvü olan Moldovanın ən yaxın müttəfiqi qərb qonşusu Rumıniyadır. Bir çox moldovalı Rumıniya pasportuna malikdir və Aİ ölkələrində işləyir. Ukraynadakı müharibənin Dnestryanıya qədər yayılması təhlükəli domino effekti yaratmaq potensialına malikdir. Rusiyanın Dnestryanıya və deməli, Moldovaya qarşı birbaşa hərəkəti böyük nəticələrə səbəb ola bilər. Rusiya Moldova ərazisində olan Dnestryanıya rəsmən hücum edərsə və ya bu bölgədən Ukraynanın cənubuna hücum edərsə, NATO üzvü Rumıniya da iştirak edə bilər. Odur ki, Rusiyanın NATO ölkəsi ilə qarşıdurma ehtimalının ortaya çıxması gündəmdən düşməyən "Üçüncü Dünya Müharibəsi"ni alovlandıra bilər.

Ardı Səh. 12



# Dünya nəyin astanasında?

Əvvəli-Səh-11

### Çin "mühasirəyə alınıb"

Cənubi Çin dənizində sular istiləşir. ABŞ-ın Filippinlə imzaladığı hərbi baza müqaviləsi sayəsində Çin ətrafında formalaşan təhlükəsizlik dairəsi tamamlanıb. ABŞ və Çin arasındakı güc savaşında ABŞ-ın xeyrinə mühüm bir inkişaf baş verib. ABŞ Filippinlə 4 yeni hərbi bazaya giriş üçün razılığa gəlib. İki ölkənin müdafiə nazirlərinin dünən verdiyi açıqlamalara görə, 2014-cü ildə imzalanan Genişləndirilmiş Müdafiə Əməkdaşlıq Sazişi (EDCA) çərçivəsində Vaşinqtona daha 4 bazaya giriş icazəsi veriləcək. Razılaşma 30 ildə ilk dəfə çoxlu sayda Amerika əsgərinin Filippinə qayıtmasını qeyd edəcək.

Prezident Co Baydenin "ABŞ-ın Filippinin müdafiəsini dəstəkləmək öhdəliyinin qaya kimi möhkəm olduğunu" vurğuladığını xatırladan Amerika Müdafiə Naziri Lloyd Ostin, "Bizim ittifaqımız həmçinin hər bir ölkənin demokratiyasına inam verir və azad bir Hind-Sakit okeanın qorunmasına töhfə verir" deyib. ABŞ-ın Filippinlə razılaşması regiona hökmranlıq mübarizəsi üçün çox mühüm bir inkişaf kimi qiymətləndirilir. Çünki Filippinin də iştirakı ilə ABŞ-ın Cənubi Çin dənizi ətrafında yaratmağa çalışdığı müdafiə qalxanı tamamlanıb. Cənubda Avstraliya, şərqdə Yaponiya və Cənubi Koreyanın ittifaqlarından ibarət olan bu təhlükəsizlik halqası Filippinin iştirakı ilə tamamlandı.

Çin ilk dəfə 1947-ci ildə dərc etdiyi xəritə ilə Cənubi Çin dənizinin 80 faizinə iddia etdiyi halda, yeraltı sərvətlərlə zəngin bölgədə Vyetnam, Bruney və Malayziya başda olmaqla qonşu ölkələrlə, xüsusilə Filippinlə suverenlik müzakirələri aparır. Peyk görüntüləri göstərir ki, Çin son illərdə bölgədəki adaları süni şəkildə genişləndirib, limanlar, hərbi qurğular və aerodromlar tikib.

NATO-nun baş katibi Yens Stoltenberq Şərqi Asiya səfəri çərçivəsində Tokioya səfər etdikdən sonra diqqətçəkən açıqlamalar verib. Stoltenberq regiondakı gərginliyə toxunaraq, "Çin Ukrayna münaqişəsinin nəticələrini diqqətlə izləyir və gələcək qərarlarına təsir edə biləcək dərslər götürüb" deyib. "Rusiya müharibədə qalib gələrsə, Moskva və Pekinin verəcəyi mesaj, kobud güclə istədiklərinə nail ola biləcəkləridir" deyən Stoltenberq bildirib ki, bu gün Avropada baş verənlər, sabah Şərqi Asiyada da baş verə bilər. "Çin bunu yaxından izləyir və gələcək qərarlarına təsir edə biləcək dərslər öyrənir" deyə baş katib şərh edib.

### Və Çin hücuma keçir

Bu arada Çinin müşahidə balonu ABŞ-ın yeraltı bunkerlərdə həssas hava bazaları və nüvə raketlərinin yerləşdiyi şimal-qərb rayonları üzərindən uçub. Məlum olub ki, prezident Baydenin tələbi ilə Pentaqon hava şarının vurulmasını müzakirə edib, lakin dağıntılar yerdəki bir çox insana təhlükə törədə biləcəyi ehtimalı səbəbindən bundan imtina edib.

ABŞ Müdafiə Nazirliyi son bir neçə gün ərzində ölkə üzərində yüksəkdə uçan şübhəli "Çin müşahidə şarını" izlədiklərini və mühüm hərbi obyektlər ətrafında casusluq etdiklərini açıqlayıb. Yüksək rütbəli müdafiə rəsmisi jurnalistlərə bildirib ki, prezident Co Baydenin tələbi ilə müdafiə naziri Lloyd Ostin və yüksək rütbəli hərbi məmurlar şarın endirilməsini nəzərdən keçiriblər, lakin onun dağıntıları yerdəki çoxlu sayda insanı təhlükə altına atacağı səbəbindən imtina ediblər. Pentaqon rəsmisi qeyd edib ki, hava şarı ABŞ-ın şimal-qərbində uçur, burada yeraltı bunkerlərdə həssas hava bazaları və nüvə raketləri var. "Aydındır ki, hava şarı müşahidə məqsədləri üçün nəzərdə tutulub və hazırkı uçuş marşrutu onu bir sıra həssas ərazilərə aparır", - deyə anonimlik şərti ilə rəsmi bildirib.

Pentaqon hava şarının Çinə məxsus olduğuna əmin olduğunu bildirib. Lakin Pentaqon hava şarını əhəmiyyətli kəşfiyyat təhlükəsi hesab etmir: "Biz hesab edirik ki, bu qabarcıq kəşfiyyat məlumatlarının toplanması baxımından məhdud imkanlara sahibdir". Çin Xarici İşlər Nazirliyi isə verdiyi açıqlamada faktların təsdiq olunmasını istəyib və fərziyyələrin məsələnin həllinə kömək etməyəcəyini bildirib. Bəyanatda Pekin və Vaşinqtonun məsələ ilə sakit və ölçülüb-biçilmiş şəkildə müzakirələrin aparılacağına ümid edildiyi vurğulanıb.

Pentaqon rəsmisi hava şarının 'bir neçə gün əvvəl' ABŞ hava məkanına daxil olduğunu kəşfiyyatın bundan çox əvvəl şarı izlədiyini bildirib. Baydenin tədbir görülməsi əmrindən sonra çərşənbə günü Filippində olan nazir Ostin Pentaqonun yüksək səviyyəli rəsmiləri ilə görüşüb. Müzakirələrin getdiyi bir vaxtda Montana üzərində olan şar barəsində məlumatlar əldə etmək üçün döyüş təyyarələri havaya qaldırılıb. Pentaqonun sözçüsü Pat Rayder hava şarının hələ də ABŞ hava məkanında izləndiyini təsdiqləyib. Rayder açıqlamasında bildirib ki, şar hazırda sərnişin təyyarələrinin uçma həddindən xeyli yüksəklikdə hərəkət edir. O, yerdəki insanlar üçün heç bir hərbi və ya fiziki təhlükə yaratmır. Cümə axşamı Pentaqonda keçirilən brifinq zamanı rəsmilər hava şarının hazırkı yerini açıqlamaqdan imtina ediblər. Həmçinin ölçüləri də daxil olmaqla obyekt haqqında əlavə məlumat verilməyib.

MKİ-nin direktoru Uilyam Börns Vaşinqtondakı Corctaun Universitetində keçirilən tədbirdə Çini hazırda ABŞ-ın üzləşdiyi "ən böyük geosiyasi problem" kimi təqdim edib. Dünyanın ən böyük iki iqtisadiyyatı olan Çin və ABŞ arasındakı münasibətlər son vaxtlar Tayvan, Çinin insan haqları ilə bağlı vəziyyəti və Cənubi Çin dənizindəki hərbi fəaliyyətləri səbəbindən gərginləşib. ABŞ dövlət katibi Antoni Blinkenin bazar günü Çinə iki günlük rəsmi səfəri planlaşdırılır. Bu, Bayden administrasiyasından bir nazirin ölkəyə ilk səfəri olacaq.








### 6 ölkənin səfiri Türkiyə XİN-ə çağırıldı

İstanbuldakı konsulluqlarını bağlayan altısı da daxil olmaqla, 9 ölkənin səfirləri Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə mənbələrə istinadən TRT Haber telekanalı məlumat yayıb. Daha üç səfir haqqında məlumat verilmir. Böyük Britaniya, Fransa, Hollandiya, İsveçrə, Almaniya və İsveç terror təhdidləri səbəbindən Türkiyədəki konsulluqlarını bağlayıb. Telekanalın məlumatına görə, görüş zamanı Xarici İşlər Nazirliyinin sözügedən ölkələrin hərəkətlərinə Türkiyənin reaksiyasını açıqlayacağı gözlənilir.

Yanvarın 30-da ABŞ səfirliyi öz vətəndaşlarına İstanbulda terror aktları təhlükəsi barədə xəbərdarlıq edib. Diplomatik nümayəndəlik terrorçuların, o cümlədən kilsə və sinaqoqlara hücum edə biləcəyindən narahatlığını bildirib. Xüsusilə Beyoğlu, Qalata, Taksim və İstiqlal küçəsinin şəhər ərazilərindən danışdılar. Eyni zamanda, səfirlik Türkiyə rəsmilərinin bu problemlə məşğul olduğuna inandırıb. Bunun ardınca bir neçə ölkə təhlükəsizlik baxımından İstanbuldakı səfirliklərini bağladığını bildirib. Türkiyə Daxili İşlər Nazirliyinin rəhbəri Süleyman Soylu isə buna cavab olaraq bildirib ki, Qərb ölkələri terror təhlükəsi ilə bağlı sübutlar təqdim etmədən Türkiyəyə qarşı "psixoloji müharibə" başladıb.

Türkiyəni daxildən çaxnaşmaya sürükləyənlər də ortadadır. Erməni əsilli deputat Karo Paylan milli azlıqların liderlərinə qarşı terror hücumu təhlükəsi ilə bağlı Türkiyə Daxili İşlər Nazirliyinə sorğu göndərib. Türkiyə Parlamentinin kürd yönümlü Xalqların Demokratik Partiyasından olan deputatı K.Paylan milli azlıqların və dini strukturların liderlərinə qarşı terror aktları təhlükəsinin olması ilə bağlı ölkənin daxili işlər naziri Süleyman Soyluya sorğu göndərib. Beləliklə, Avropa ölkələrinin səfirləri ilə, Türkiyənin içində olan düşmənlərinin birgə hərəkətini başqa faktlarla sübut etməyə də lüzum yoxdur. Paylan "məlumatların reallığa uyğun olduğunu, mümkün terror hücumlarının qarşısının alınması üçün hansı tədbirlərin görüldüyünü və bu kontekstdə milli azlıqların nümayəndələrinin qorxularının necə dağıdılacağını" öyrənmək istəyib. Qeyd edək ki, ABŞ səfirliyi Avropada Quranın yandırılması hadisələrindən sonra İstanbulun mərkəzində terror aktları təhlükəsi barədə xəbərdarlıq edib.

### İranı gözləyən təhlükə

İran dünya güclərinin əzmək istədiyi bir rejimdir, amma molla rejimi də kamikadze rolunu oynamağa həvəsli görünür. Daxili çaxnaşmanın səbəbi bəllidir, sosial problemlər, rejimin yaratdığı üsul-idarədən xalqın usanması, milli məsələlər. Digər bir mühüm məsələ də İranın nüvə silahı əldə etmək istəyidir ki, buna da beynəlxalq güclər qarşılıq verirlər.

ABŞ dövlət katibi Entoni Blinken Səudiyyə Ərəbistanının Əl-Ərəbiyyə telekanalına müsahibəsində deyib ki, hazırda Vaşinqtonun diqqəti İranla bağlı digər məsələlərə yönəlib. Beynəlxalq ictimaiyyətin İranın nüvə proqramı ilə bağlı narahatlığını aradan qaldırmağın ən təsirli yolu diplomatiyadır. Eyni zamanda o vurğulayıb ki, prezident Bayden ABŞ-ın İranın nüvə silahına sahib olmasının qarşısını almaqda qərarlı olduğunu və bunun baş verməməsi üçün bütün variantlar danışıqlar masasında qaldığını açıq şəkildə ifadə edib. Bunun hərbi variant olub-olmaması ilə bağlı aydınlaşdırıcı suala dövlət katibi belə cavab verib: "Hər şey masanın üstündədir". Bu mövzu bu həftə cənab Blinken tərəfindən Qüdsdə İsrailin Baş naziri Benyamin Netanyahu ilə müzakirə edilib. İsraillilər həmişə "Birgə Hərəkət Planı"na qarşı çıxıblar və İrana təzyiqin artırılması üçün lobbiçilik etmək niyyətini gizlətməyiblər. Buna təkcə amerikalıları deyil, Avropalı müttəfiqlərini də inandırmağa çalışırlar. Netanyahu Parisdə Fransa prezidenti Emmanuel Makron ilə İran məsələsini şəxsən müzakirə edib.

Moskva İran ətrafında gərginlikdən də narahatdır və Qərbin "Birgə Hərəkət Planı"-ndan imtina kursunu səhv hesab edir. Bu fikri bu həftə Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. O, həmçinin cənab Blinkenin "hərbi variant"la bağlı sözlərinə kəskin reaksiya verib. "Qərbin hərəkətləri yalnız bir şeyi ifadə edir: onlar BMT-nin ali orqanının qərarlarını yerinə yetirmək əvəzinə, Təhlükəsizlik Şurasının qətnamələrinə laqeyd yanaşmağa və aqressiv hərəkətlərə, o cümlədən hərbi güc tətbiq etməyə üstünlük verirlər" deyib.

Beləliklə, dünya gücləri planetimizdə müharibə ab-havasını artırmaqla məşğuldurlar. Nəticənin nə olacağını demək bir o qədər də çətin deyil. III Dünya Müharibəsimi?

**V.VƏLİYEV**

# AQTA qəribə vaxtında oyanıb



**_Dünən xəbərdar olduq ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bazarlarda ucuz qiymətə-3-ü 10-11 manata olan toyuq məhsullarının satışı ilə bağlı kütləvi informasiya vasitələrində yayılan məlumatlara əsasən, ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrində monitorinq aparıb._**

Çox sevindik, həddindən artıq. Ona görə sevindik ki, şükür, axır ki, AQTA bu məsələyə reaksiya verib. Lakin o qədər də kədərləndik, ona görə ki, AQTA bu məsələdə qəribə vaxtında ayılıb. Həmin toyuqların dəqiq nə vaxtdan satışda olduğunu dəqiq deyə bilməsəm də, bir ildən artıqdır ki, bazarlarda 3-ü 10 manata olan toyuqların satışını müşahidə etmişəm. Elə bu barədə aylar öncə ”3-ü 10 manata” adlı felyeton da yazmışdım. Əksər kütləvi informasiya vasitələri də bu barədə elə hey yazırdı.



BAXIŞ BUCAĞI

Ondan da xəbərdar olduq ki, AQTA kütləvi informasiya vasitələrində yayılan məlumatlara əsasən ticarət obyektlərində monitorinq aparıb. Maraqlıdır, deyilmi? Görəsən bizdə nə üçün əksər məmurlara vəzifələrinin nədən ibarət olduğunu yalnız kütləvi informasiya vasitələri xatırlatmalıdır? Onlar öz işlərini nə üçün lazımi səviyyədə qura bilmirlər, yaranan problemlərin həllini vaxtında aradan qaldırmağa çalışmırlar? Gərək mətbuat yaza, çəkə, göstərə, həm də dəfələrlə, bundan sonra əlahəzrət qurum rəhbərləri məslənin araşdırılması üçün göstəriş verələr. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi kimi.

Artıq xeyli vaxtdır ki, insanlar bazarlardan bu cür toyuqları alıb istifadə edirlər. O vaxt, bu vaxt da mətbuat yazır ki, yazır. Lakin çox təəssüf, məsələ lap yenicə araşdırılıb və AQTA-nın məlumatına görə, monitorinq zamanı Gürcüstandan ”Nazal-M” MMC tərəfindən ölkəyə idxal edilən ”Poultry Georgiya” MMC-nin istehsalı olan, Belarus Respublikasından ”Orion Qlobal” MMC tərəfindən gətirilən ”Soliqorsk Quşçuluq Fabriki” ASC-nin istehsalı olan və ”AFM Construction” MMC tərəfindən idxal edilən ”1-ci Minsk Quşçuluq Fabriki” ASC-nin istehsalı olan ikinci sort toyuq məhsullarının ”kənd toyuğu” adı altında satışının həyata keçirildiyi müəyyən edilib.



Həqiqətən bəzi hallarda özümüzə o qədər yazığım gəlir ki Xüsusilə AQTA-nın məlumatındakı aşağıdakı cümləri oxuyandan sonra: Monitorinq çərçivəsində idxal olunan toyuqlardan götürülən məhsulların etiket məlumatlarında ”kənd toyuğu” yazılmaqla, istehlakçıların aldadılmasının qarşısının alınması və hüquqlarının müdafiəsi məqsədilə ”Orion Qlobal” MMC, ”Nazal-N” MMC və ”AFM Construction” MMC-də plandankənar yoxlamalar aparılıb.

Belə çıxır ki, bu qurum həqiqətən də fikiləşir ki, ”kənd toyuğu” adı altında satılan toyuqlarla çamaatı aldadırmışlar və o, bunun qarşısını alıb? Əsla sanmıram ki, bunu bilməyən tək bir adam ola Bakı şəhərində. Çünki birincisi, 3-ü 10 manata olan toyuğun kənd toyuğu olmasını düşünmək nədir, bu fikri ağıla gətirmək belə böyük qəbahətdir. İkincisi, Bakı şəhərində yaşayan insanların hər birinin rayonlarımızla əlaqəsi var. Onlar əsl kənd toyuğunun da necə olduğunu, hələ kəndlərdə qiymətinin də neçəyə olduğunu yaxşı bilirlər.

3-ü 10 manata olan toyuq nə kənd toyuğu ola bilər, nə broyler. Bu nədir, insanlara satılır, bax, bunun mənşəyini öyrənmək lazım idi ki, artıq bu da gecdir. Çünki minlərlə insan o toyuqlardan aylardır ki, alıb istifadə edib və zərərli tərəfi nədirsə, onlara artıq etdiyini edib. Bunun nə vaxt üzə çıxacağına, onu yeyənlərə nə edəcəyinə isə, təvəkkül Allaha, deyək.

Məlumatın davamında oxuyuruq: Yoxlamalar zamanı toyuq məhsullarının ticarət obyektlərindən geri çağırılması ilə əlaqədar məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul olunub və müəssisələrin məsul şəxsləri barəsində inzibati tənbeh tədbirləri görülüb. Verilmiş qərarın icra vəziyyətinin yoxlanılması ilə əlaqədar agentliyin əməkdaşları tərəfindən ticarət obyektlərində təkrar monitorinqlər keçirilib. Bu çərçivədə ümumilikdə 1218.9 kq ”kənd toyuğu” adı ilə dövriyyəyə buraxılan məhsul dərhal satışdan kənarlaşdırılıb, müəssisə rəhbərliyinə həmin məhsulun idxalçı şirkətə geri qaytarılması ilə bağlı icrası məcburi göstərişlər verilib. Əlavə olaraq, sözügedən idxalçılar tərəfindən ümumilikdə 29799 kq ”kənd toyuğu” sözləri qeyd edilmiş ikinci kateqoriyalı toyuq məhsullarının ticarət obyektlərindən geri qaytarılması və üzərində müvafiq dəyişikliklər edilərək yenidən satışa göndərilməsi təmin olunub.

Hə, gözlərimiz aydın olsun, ta bazarlarda 3-ü 10 manata satılan toyuqların üzərində ”kənd toyuğu” etiketini görməyəcəyik. Aldadılmağımızın qarşısı alındı. Vallah, böyük təsəllidir. Bu, məsələnin bir tərəfi. Həmin toyuqlar ”kənd” sözündən azad edillib ikinci kateqoriyalı toyuq məhsulu kimi yenidən satışa çıxarılıb. Maraqlıdır, 10-11 manata 2-ci kateqoriya necə, ucuz deyilmi? Toyuğun bir ədədi 3 manat 30-50 qəpiyə düşür. Həm də maraqlıdır ki, aylardır kənd toyuğu da sürətlə bahalaşır, kənd yumurtası da, broyler toyuqlar da, lakin bu 3-ü 10 manata olanların qiyməti dəyişməz olaraq qalır. Görəsən onlara bəs nə yedirib-içirdirlər ki, bu qiymət belə sabit qalır?

Kənd toyuğunu satandan ”nə üçün belə bahalaşdırmısan”,- deyə soruşursan, deyir ki, bəs toyuq yemi bahalaşıb, bunun nəqliyyatı var, alınıb gətirilməsi var. Kənd yumurtası da eynilə. Oxşar fikirləri broyler toyuğun bahalaşma səbəblərində də görmək olur. Məncə, bax, bu araşdırılmalıdır ki, 3-ü 10 manata olan toyuqlar nə üçün bahalaşmır? Düşünürəm ki, bu toyuqların kateqoriyasına yenidən baxılmasında fayda var. Əgər bu bir də yenidən, həm də əməlli-başlı dəqiq araşdırılsa, vallah, çox əminəm ki, heç onun kateqoriyasını müəyyən etmək mümkün olmayacaq. Belə isə 3-ü 10 manata satılan toyuqlara hələlik ikinci kateqoriyanı verməyək.

Əziz alıcılar, sizin sağlamlığınızı düşünən biri kimi çox-çox xahiş edirəm ki, belə toyuqlara yaxın durmayasınız. Çünki onlar xəstəlik, dərd-bəla ocaqlarıdır. Onlardan istifadə etməkdənsə, yavan çörək yemək daha faydalı olar. Qədrinizi bilin. Bu cür ucuz, bahalaşmaya bir addım belə atmayan məhsullar özləri haqqında lazımı məlumatı artıq vermişlər. Məlumat verib demişlər ki, biz insanların yaşaması üçün deyilik, onların məhvi üçünük.

Yaxşı olar ki, aid qurumlar belə məsələlərdə çox da gecikməsinlər. Belə məhsulların bazarlarda ikinci dərəcəli məhsul kimi nədir, satışına əsla icazə verilməməlidir.

***Mətanət Məmmədova***



# "Molla rejimi məhvə məhkumdur"

***- Abutalıb müəllim, Azərbaycanın səfirliyinə olan xain hücum bir daha molla rejiminin terrorçu bir rejim olduğunu əyani təsdiqi sayıla bilər?***



*Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədovun "Səs" qəzetinə müsahibəsi*

- Bu cür hadisələr digər ölkələrin ərazisində də baş verib. Son iyirmi ildə İslamabadda Çexiya səfirinin öldürülməsi, Bağdadda Əlcəzairin diplomatik nümayəndəliyinin rəhbərinin oğurlanaraq edam edilməsi, Nayrobidə Venesuelanın səfirinin boğularaq öldürülməsi və s. hallar hamımızın yaxşı yadındadır. Qardaş Türkiyədə bir neçə il əvvəl Rusiya səfiri Andrey Karlovun qətlə yetirilməsindən sonra heç kimin ağlına gəlmədi ki, Türkiyəni terrorçu dövlət adlandırsın. Ancaq təəssüf ki, İran barədə danışarkən onu ən azından terror çağırışlarına "dözümlü" yanaşan dövlət olduğunu söyləmək məcburiyyətindəyik. Yəqin xatırlayırsınız təqribən bir ay əvvəl bir nəfər azərbaycanlılara və səfirliyimizə qarşı terror çağırışı ilə dolu video yayımladı. Onun haqqında dərhal cinayət işi açmalı olan və onu məsuliyyətə cəlb etməli olan İran dövləti heç bir tədbir görmədi. Bu cür münasibət terroru "həvəsləndirmək" cəhdindən başqa bir şey deyildi. Səfirliyimizə qarşı törədilən terror aktının səbəblərindən biri, bəlkə də birincisi İran hakimiyyətinin terror çağırışlarına vaxtında və kəskin reaksiya verməməsi oldu. Ümid edirəm ki, heç olmasa bu faciədən sonra İran rəhbərliyi bu cür çağırışlar səsləndirənlərin barəsində qəti tədbirlər görəcəkdir.

***- Azərbaycan səfirliyi tamamilə fəaliyyətini dayandırdı. Bundan sonra proseslər hansı məcrada inkişaf edə bilər?***

- Hadisələrin bundan sonrakı inkişafı İran rəhbərliyinin atacağı addımlardan asılı olacaq. Təbii ki, İran bizim qonşumuzdur, orada bizim on milyonlarla soydaşımız yaşayır və biz Tehranda səfirliyimizin olmasında, normal münasibətlərimizin formalaşmasında çox maraqlıyıq. Ancaq İran hakimiyyəti ilk növbədə diplomatik nümayəndəliyimizin normal fəaliyyət göstərməsi üçün şərait yaratmalı və təhlükəsizliyə tam təminat verməlidir. Terror aktını hazırlayan və icra edən cinayətkarlar haqqında ən qısa müddətdə kəskin cəza tədbirləri görülməlidir. Əgər bunlar baş verməsə və İran hakimiyyəti terror çağırışları ilə çıxış edənlərə yenə də "səbrlə" yanaşmaqda davam etsə Azərbaycan hakimiyyəti tərəfindən ən kəskin addımlar atılmalıdır. İnanıram ki, İran rəsmiləri işin bu həddə gəlib çatmaması üçün əllərindən gələni edəcəklər.

***- Molla rejimi etdiyi qanlı terrora görə, Azərbaycan xalqından, dövlətindən hələ də üzr istəməyib. Bu yaramazlıq nə ilə bağlıdır?***

- İran hakimiyyətinin törədilən qanlı terror aktına görə, Azərbaycan xalqından, dövlətindən hələ də üzr istəməməsi onun mahiyyətini ortaya qoyur. Normal dövlətlər bu cür hadisə baş verdikdən dərhal sonra qətlə yetirilmiş diplomatın təmsil etdiyi dövlətdən və doğmalarından üzr istəyir və hər cür maddi və mənəvi dəstəyə hazır olduqlarını bəyan edirlər. İran hələ ki, sivil dünyada qəbul olunan bu yolu tutmaq istəmir. Təəssüf ki, İran rəsmiləri bəzi hallarda "orta əsrlər" üçün xarakterik olan davranışlar sərgiləməkdən, bəyanatlar səsləndirməkdən çəkinmirlər. Nəzərə almırlar ki, dünya son illər çox dəyişib və İran da bu proseslərə "ayaq uydurmaq", normal dövlətə çevrilmək məcburiyyətindədir. Ümid edək ki, normallaşma prosesi nəhayət başlayacaq və çox uzun çəkməyəcək.

***- Artıq İsraildə İrana qarşı hərbi əməliyyatlara başladığı deyilir. Regionda yeni bir müharibə ocağı yarana bilərmi?***

- Çox təəssüf ki, regionda yeni müharibə ocağının yaranması tamamilə mümkündür. Bunun səbəbi ilk növbədə İran hakimiyyətinin apardığı yanlış siyasət, "nüvə danışıqlarında" tutulan qeyri-konstuktiv mövqedir. İran rəhbərliyi bir şeyi anlamaq istəmir ki, onun nüvə silahına sahib olmasına ABŞ başda olmaqla dünya gücləri imkan verməyəcəklər. Təbii ki, Azərbaycan da İranın nüvə silahına malik olmasını qətiyyən istəmir və bu bizim təhlükəsizlik maraqlarımıza ziddir. Bu səbəbdən İran nəyin bahasına olursa-olsun "nüvə klubu"na daxil olmaq fikrindən imtina etməli və 2015-ci ildə "altılıqla" (BMT TŞ-nın beş daimi üzvü üstəgəl Almaniya) əldə olunan razılaşmaya dönmədən əməl etməlidir. Əks halda İranda və bütövlükdə bölgəmizdə mövcud olan çox təhlükəli qarşıdurma daha da şiddətlənib silahlı toqquşmaya çevrilə bilər. Şənbə günü İranın İsfahan, Rəşt, Dizful, Həmədan və digər şəhərlərində baş verən partlayışlar hadisələrin son dərəcə təhlükəli istiqamətdə inkişaf etməsinin göstəricisidir. İran rəhbərliyi bu "xəbərdarlıqdan" düzgün nəticə çıxarmalı və bölgədə yaranmış gərginliyi azaltmaq üçün real addımlar atmalıdır. İranın hərbi sursat istehsal olunan zavodlarına kimin hücum etməsi hələlik dəqiq məlum deyil. Bir sıra nüfuzlu kütləvi informasiya vasitələri hücumun İsrail tərəfindən edildiyini yazıblar və bu iddialar hələ də nə təsdiq, nə də təkzib olunmayıb. Ancaq bir şey aydındır ki, İran hakimiyyəti öz siyasətində ciddi düzəlişlər etməsə genişmiqyaslı silahlı toqquşmadan yayınmaq mümkün olmayacaq.

***- Sizcə, İsrail İran müharibəsi qanlı toqquşmalarla müşayiət olunarsa Azərbaycana hansısa bir formada zərər vura bilərmi?***

- Azərbaycan İranın ən yaxın qonşusudur və ona qarşı başlanan hərbi əməliyyatlar bizim üçün təsirsiz ötüşməyəcək. Təbii ki, biz bölgədə hərbi əməliyyatların baş verməməsində, sülhün bərqərar olmasında maraqlıyıq. Ancaq çox təəssüf ki, hər şey bizdən asılı deyil. İran dövləti yeritdiyi aqressiv xarici siyasətdən imtina etməli, öz gücünü və ona qarşı olan dövlətlərin imkanlarını düzgün qiymətləndirməlidir. Əks halda bölgədə qanlı toqquşmalardan qaçmaq mümkün olmayacaq. Bu toqquşmaların zərəri isə bölgə dövlətlərinin hamısına olacaq və Azərbaycanın da vurulacaq zərərdən özünü qoruması mümkün olmayacaq. Əsas zərbə ilk növbədə bölgə ölkələrinin iqtisadiyyatına dəyəcək. Məlumdur ki, Azərbaycan son illər Şimal-Cənub beynəlxalq nəqliyyat koridorunun tam gücü ilə işləməsi üçün əlindən gələni edir. Bu dəhlizin tam gücü ilə işləməsinə Rəşt-Astara dəmiryol xəttinin hələ də işə düşməməsi mane olur. Baxmayaraq ki, bir neçə il əvvəl dövlətimiz bu yolun salınması üçün İrana əlverişli şərtlərlə 500 milyon dollar verib, təəssüf ki, İran dövləti dəmiryolunun tikintisini ləngitməkdə davam edir. Mümkün hərbi əməliyyatlar digər sahələr ki, nəqliyyat infrastrukturuna da ciddi zərbə vuracaq və bundan hamımız zərər çəkəcəyik.

***- İran İsrail müharibəsi baş verərsə Ermənistan hansı formada molla rejiminə kömək edəcək?***

- İran-İsrail müharibəsi başlayarsa Ermənistanın və ermənilərin satqın mahiyyəti bir daha üzə çıxacaq və molla rejimi qoynunda necə "ilan bəslədiyini" anlayacaq. Müharibə olarsa Ermənistanın İrana köməyindən söhbət belə gedə bilməz. Çətin məqamda cənub qonşumuzu tərk edən və yeni "hamilər" axtarışına çıxan ilk dövlət Ermənistan olacaq. Düşünürəm ki, İran hakimiyyəti yaranacaq bütün təhlükələri ləngimədən, vaxt itirmədən nəzərə almalı, öz xalqına yeni fəlakətlər yaşadacaq siyasi xətdən dərhal imtina etməlidir.

***Gülyana***

# 3500 nəfərlik terrorçuya verilən təlimatlar: qanlı Tehranın iç üzü!

*Casus şəbəkəsi 1997-2011-ci illər aralığında İran tərəfindən hazırlanmış xüsusi proqram vasitəsi ilə fəaliyyətə keçiblər*



Beləliklə, İrandan göndərilmiş casusların ifşaları davam edir. Dünya mediasının da diqqətini çəkən bu proses göstərir ki, Tehran rejiminin Azərbaycan vasitəsi ilə öz kirli geosiyasi maraqlarını genişləndirmək cəhdləri nəinki Cənubi Qafqaz regionuna, eləcə də bu regiondan istifadə edilməklə daha geniş arealı nəzərdə tuturdu. Daha dəqiq desək, İranın kəşfiyyat strukturları tərəfindən hazırlanaraq "şiəliyin təbliğatı" adı altında Azərbaycana atılan agentlər sonrakı müddətlərdə öz fəaliyyət çevrələrini daha da genişləndirməli idilər. Artıq bütün bunlar danılmaz faktlara söykənməkdədir.




Bu arada, Türkiyənin "Diriliş Postası" nəşrinin yazdığına görə, İran Azərbaycana "şiə informatorlar" adı altında 3500 nəfərlik casus şəbəkəsi göndərib. Onlar isə müxtəlif adlar altında təbii ki, birbaşa Tehranın təlimatları ilə fəaliyyət göstəriblər - teoloqlar, siyasi analitiklər və şərhçilər, iqtisadçılar, mədəniyyət sahəsinin adamaları, təhlükəsizlik məsələləri üzrə şəxslər, vətəndaş və hərbi bürokratiyaya aid fərdlər.

ANALİTİK-AKTUAL

**Tehranda və Yaxın Şərq ölkələrində oturan bir sıra bəlli şəxslərin Azərbaycanda "kərimə dövləti" qurmaq yönündəki "moizələri" belə qənaətə gəlməyə zəmin yaradır ki...**

Təbii ki, ifşa prosesində Azərbaycanın müvafiq güc və kəşfiyyat strukturları da casus şəbəkəsinin açığa çıxarılması baxımından yüksək peşəkarlıq nümayiş etdiriblər. Hansı ki, sözügedən şəbəkə 1997-2011-ci illər aralığında İran tərəfindən hazırlanmış xüsusi proqram vasitəsi ilə fəaliyyətə olublar. Adıçəkilən nəşr də qeyd edir ki, buna baxmayaraq, 700 şiə informatoru Azərbaycanın hüdudlarını tərk etməyə nail olub. Və bu gün Tehranda və Yaxın Şərq ölkələrində oturan bir sıra bəlli şəxslərin Azərbaycanda "kərimə dövləti" qurmaq yönündəki "moizələri" də belə qənaətə gəlməyə zəmin yaradır ki, onların bir çoxu məhz həmin informatorlardır.

"Diriliş Postası"nın digər şərhi də diqqət çəkir. Misal üçün, nəşrin yazdığına görə, İran 1996-cı ildə "Azerbaijan Desk" adı altında ayrıca xüsusi təyinatlı bölmə də yaradıb. SİTAT: "İlk addım kimi iranlı xüsusi xidmət oraqnlarının iştirakı ilə "Şaziman-i İttilaat" və SEPAH tərəfindən 4 min kəşfiyyat zabiti seçilib. Onlar Azərbaycan dili, coğrafiyası və mədəniyyəti ilə bağlı xüsusi hazırlıqlar keçiblər".

**"Diriliş Postası": "Kimlər ki, vətəndaşlıq hüququna malik olubsa, onlar daha strateji rayonlara göndəriliblər"**

Göründüyü kimi, buradakı məqsəd əsas olaraq Azərbaycan cəmiyyətinin daxilinə sızmaq, o cümlədən Azərbaycanın ərazilərini tanımaqla həmin ərazilərdə kəşfiyyat işlərini aparmaq olub. Əbəs deyil ki, bütün informatorlar Bakıya daxil olublar və ilkin plan əsasında azərbaycanlı qadınlarla ailə həyatı qurublar. Nəşr bildirir ki, Azərbaycan qanunvericiliyinin tələblərinə görə, sonradan iranlı agentlərin vəzifə təlimatları dəyişdirilib və onlara nikah üzərindən ötən beş il müddətindən sonra vətəndaşlıq almaq hüququ sayəsində daha geniş imkanlar verilib. SİTAT: "Kimlər ki, vətəndaşlıq hüququna malik olubsa, onlar daha strateji rayonlara göndəriliblər". Nəticədə informatorların bir hissəsi kommersiya sferasına, başqaları mülki, hərbi və diplomatik sahələrə, digərləri isə QHT-lərə, mədəniyyət, incəsənət və ilahiyyat sahələrinə təyin olunublar.

**Səfirliyimizə silahlı basqın edən terrorçu Yasin Hosseynzadənin qardaşı Rəhman Hosseynzadə kimdir?**

Bir neçə gün əvvəl Tehrandakı Azərbaycan səfirliyinə edilən xain və qanlı terror aksiyasından sonra üzə çıxan faktlar da kifayət qədər diqqət çəkməyə başlayır. Bu gün israrla, təkidlə qanlı hadisənin "məişət zəminində" baş verdiyini iddia edən Tehranın molla rejimi öz yalanını bu gün də davam etdirməklə, əslində, özünü daha çox açığa çıxarmış olur. Halbuki, dəlillər, faktlar danılmaz sübutlar bir daha göstərir ki, bu hadisə İranın xüsusi xidmət orqanlarının idarə etdirdiyi casus şəbəkəsinin hazırladığı aşkar terror aktıdır!

Məsələn, məlum olub ki, səfirliyimizə silahlı basqın edən Yasin Hosseynzadə də bu komandanın üzvlərindəndir. Onun qardaşı Rəhman Hosseynzadə isə Urmiyədə kitab ticarəti ilə məşğuldur və SEPAH kəşfiyyatının xüsusi əlaqələndiricilərindən biridir. Lakin yanvarın 27-də səfirliyimizə edilən hücumun məqsədi də ayrı idi. Yəni nəzərdə çox qanın tökülməsi planı dayanırdı. Terrorçu səfirliyə daxil olarkən səfirliyin bütün əməkdaşlarını qətlə yetirməli idi, sadəcə, azərbaycanlı diplomatların, eləcə də təhlükəsizlik xidmətinin qəhrəmancasına göstərdikləri müqaviməti bu planı pozdu.

***Rövşən RƏSULOV***

***Azərbaycan və İran arasında növbəti böhranın arxasında nə dayanır və ümumi beynəlxalq vəziyyətlə necə bağlıdır - "Moskva-Baku" portalına müsahibəsində Rusiyanın keçmiş xarici işlər nazirinin müavini (1990-1991) Andrey Fyodorov prosesi təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı diplomat: "İran əsas regional güc olmağa çalışır"

*Andrey Fyodorov: "Yaxın gələcəkdə Tehranın regionda vəziyyəti gərginləşdirmək üçün təxribata əl atacağı ehtimalı yüksəkdir, Azərbaycan səbrli və diqqətli olmaldır"*

**- Andrey Vladimiroviç, Azərbaycan və İran münasibətləri növbəti böhran dövrünü yaşayır. 2021-ci ildə İbrahim Rəisinin İslam Respublikasında hakimiyyətə gəlməsi ilə Azərbaycan-İran münasibətlərində böhranlar hər an alovlanır. Amma indi baş verənlər ziddiyyətlərin dolaşıqlığına bənzəyir. Bir tərəfdən, İran açıq-aşkar Azərbaycana nəsə göstərmək istəyir, digər tərəfdən, elə bu yaxınlarda, Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə hücumdan əvvəl İranın xarici işlər naziri bildirib ki, Azərbaycanla əlaqələri gücləndirmək və inkişaf etdirmək lazımdır. Bunun fonunda Moskva ilə Tehranın da intensiv yaxınlaşması var. Moskvanı, Bakını, Tehranı müştərək layihələr birləşdirir ki, biz burada və indi işləməliyik. Tehranla Bakı arasındakı münaqişənin əsasında nə dayanır?**

- Hələlik, Azərbaycanla İran arasında münasibətlərdə həddindən artıq problem görmürəm. İranın davranış tərzi onun, sadəcə olaraq, küncə sıxışdırılması ilə bağlıdır. Bu gün bu mövzunu ekspertlərlə müzakirə etdik. Nəhayət, məlum oldu ki, nüvə sazişi üzrə razılaşmaların əldə olunması imkanları sıfıra endirilib. İranın bu davranışının arxasında duran əsas amil də budur. Mən Tehranın iqtisadi inkişafı üçün hansı böyük planlar hazırladığını bilirəm, çünki İran hakimiyyəti hələ də JCPOA üzrə yenilənmiş razılaşma əldə etməyə ümid edirdi. Və buna nail olmaq artıq mümkün olmayacaq. Beləliklə, İranın gələcəklə bağlı bütün planları bir zərbə ilə kəsilir.

Buna İranda vəhşi qıcıq yaradan Netanyahunun İsraildə hakimiyyətə qayıdışı da əlavə edilib. Mübarizə edilməli düşmən kimi görünür.

Bundan əlavə, İran Türkiyənin bölgədə artan təsirindən son dərəcə narahatdır. Burada Suriya faktorunun da olduğunu unutmaq olmaz. İran Suriyada Rusiyanı faktiki olaraq tamamilə əvəz edib. İranın Əsədə dəstəyi azalmayıb. Türkiyə Suriyada yeni hərbi əməliyyatlara başlayarsa, Türkiyəni cilovlamaq üçün öz qoşunlarını təmin etməyə hazır olan ölkə İrandır. İndi bir çox ölkələr kimi İran da Türkiyədə mayın 14-də keçiriləcək prezident seçkilərinin nəticələrini gözləyəcək.

2021-ci ildə Rəisinin İranda hakimiyyətə gəlməsi ilə Tehran İranın regionda və dünyada təsirini genişləndirmək konsepsiyasını həyata keçirməyə başladı. İran kifayət qədər müddət ərzində müxtəlif səbəblərdən bu istiqamətdə kəskin regional addımlar atmaqdan çəkindi. Rəisinin gəlişi ilə belə bir fikir formalaşdı ki, İran ciddi oyunçunun yerini tutmalıdır və ciddi oyunçu siyasəti çox vaxt ətrafdakılarla sülh, sevgi, dostluq demək deyil (hətta İran müntəzəm olaraq bu barədə danışsa belə), lakin öz nöqteyi-nəzərini başqalarına öz iradəsini təlqin edir. Bu, İranın bu gün reallaşdırmağa çalışdığı ciddi oyunçu roludur.

Göstərilən bütün faktorlara əsaslansaq, bütün planları iflasa uğrayan və küncə sıxışdırılan İranın öz siyasətini kökündən fərqli şəkildə quracağı göz qabağındadır. O, özünü başqa cür aparacaq- həm regionda, həm Qafqazda, həm də hər yerdə. Artıq heç nədən qorxmur. Onun üçün işlər daha da pisləşə bilməzdi. Qərb diplomatlarından biri mənə açıq şəkildə dedi: "İndiki vəziyyət bizə İranı dünya siyasətindən tamamilə "söndürmək" imkanı verəcək". İran isə bunu çox gözəl anlayır. İran bir çox cəhətdən azaddır. Bundan əvvəl Tehran iki ildir ki, indi JCPOA üzrə razılaşma üçün son şans olduğuna ümid edirdi. Və sonda alınmadı. Altı ay əvvəl İranın gördüyü mənzərə getdi. Bu vəziyyət daha olmayacaq. İranın artıq illüziyaları yoxdur. İranın




müəyyən qəzəbi var. Artıq bu, özünü saxlayan İran deyil. İndi o "dişləyə" bilər.

Yaxın gələcəkdə İranın regionda vəziyyəti gərginləşdirmək üçün təxribata əl atacağı ehtimalı yüksəkdir. Çünki bu, ona siyasi fayda gətirəcək- yəni ilk növbədə, İsrailin zəifləməsi. İndi düşünürəm ki, keçmişdən fərqli olaraq, İran İsraillə münaqişəyə hazırdır. Qələbə olmasa belə. Ancaq yenə də ona çox şey verəcəkdir. İsraili zəiflətmək həmişə İranın tarixi məqsədi olub. Üstəlik, iranlılar başa düşürlər ki, bu gün onların imkanları var- ABŞ-ın prezident seçkilərinə hazırlığı kontekstində onun İsrailə kömək etmək imkanları daha az olacaq.

Ona görə də yaxın bir-iki ay ərzində İran özünü daha radikal aparmağa və hamı üçün daha da ziddiyyətli olmağa başlaya bilər. Bu gün İrana bir az fərqli baxmaq lazımdır, bu, hətta bir neçə ay əvvəlki İran deyil.

Bütün bunlar təbii ki, bu gün dünyada gedən proseslər çərçivəsində nəzərdən keçirilməlidir. Bu, ümumi vəziyyətdir. Burada sırf regional aspekt yoxdur.

**- Bəs bütün bunlar indi eyni beynəlxalq vəziyyət fonunda Rusiya ilə İran arasında əməkdaşlığın sıxlaşmasına necə uyğun gəlir? Bəs Rusiya necə hərəkət edəcək?**

- Normal uyğun gəlir. Bu gün İranın silah ala biləcəyi yeganə ölkə Rusiyadır. Sanksiyalar ətrafında neft ticarətinə kömək edə biləcək yeganə ölkə Rusiyadır. Xəzər dənizi üzərindən İran vasitəsilə Hindistana nəqliyyat dəhlizinin həyata keçirilməsinə kömək edə biləcək yeganə ölkə Rusiyadır.

Düzünü desəm, Rusiya İran üçün indiki vəziyyətə heç də uyğun deyil. Bizim əsas problemimiz Ukraynadır.

**- Azərbaycanın İrandakı səfirliyinə hücumun səbəbi nə ola bilər?**

- Mən hələ ki, bu vəziyyəti siyasiləşdirməzdim və geosiyasi deyil, etno-milli müstəvidə yazardım. Məlum olduğu kimi, İranla Azərbaycan arasında bəzi qüvvələrin istifadə edə biləcəyi tarixi iddialar da var. Amma ümumən, dediyim kimi, İrandan gələn bütün neqativ hallar konkret olaraq Cənubi Qafqazda onun Türkiyənin regionda güclənməsini bəyənməməsi ilə bağlıdır.

**- 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya Cənubi Qafqazda və onun hüdudlarından kənarda daha geniş dinc əməkdaşlıq üçün imkanlar açdı. Onda belə bir konsepsiyanın həyata keçirilməsinin ciddi problemlərlə üzləşməyəcəyi görünürdü. Axı Rusiya, Azərbaycan və İranın hər şeyi götürüb ləğv edəcək çoxlu ortaq layihələri var. Nəticədə, belə bir dinc konsepsiya dağılmağa başlayır...**

- Bu konsepsiyanı heç kim ləğv etməyib. Amma indi işləmir. Yeni reallıqlar meydana çıxdı və əvvəllər düşünülmüş hər şey çökməyə başladı. Bölgədə hər kəs öz maraqlarını güdür. Ukraynada və dünyada baş verən hadisələr prosesə çox ciddi düzəlişlər etdi.

**- Bu yaxınlarda İranın xarici işlər naziri bildirib ki, Tehran Azərbaycanla münasibətləri intensiv şəkildə gücləndirmək niyyətindədir. Şox keçməmiş səfirliyə hücum oldu. Çox ziddiyyətli haldır...**

- Heç də çox ziddiyyətli deyil. Müsbət bəyanatlar normal diplomatiyadır. Kim deyəcək ki, biz pis münasibət istəyirik. Sadəcə, bəyanatlar və təcrübə iki fərqli şeydir.

**- Ermənistan xarici işlər nazirinin müavini bildirib ki, ötən il Azərbaycanla Ermənistan arasında eskalasiya raundları olanda İran erməni tərəfinə kömək edib. Unutmaq olmaz ki, İran Zəngəzur dəhlizinin reallaşmasında maraqlı olmadığına dair siqnallar verib. Belə misalları daha çox göstərmək olar. Görünən odur ki, Rəisinin dövründə İranla Ermənistan arasında münasibətlər daha da yaxınlaşıb, İranla Azərbaycan arasında isə əksinə, mürəkkəbləşib.**

- Regional güc olmaq istəyirsənsə, başqalarına göstərmək lazımdır ki, beləsən. Beləliklə, İran Azərbaycana impulslar göndərdi... İran yeni nəqliyyat mərkəzi olmağa can atırdı.

Azərbaycan və İran münasibətlərin gərginləşəndə Ermənistan bunu çox xoşlayır. Təbiidir. Bəli, Rəisinin hakimiyyətə gəlişi ilə İranla Ermənistanın münasibətləri yaxınlaşdı, İranla Azərbaycan arasındakı əlaqələr isə uzaqlaşdı. Ancaq bunlar hələ də qisməndir.

İran tezliklə özünü regional və qlobal müstəvidə göstərəcək. Bu, İran və İsrail arasında hərbi münaqişə ilə nəticələnə bilər. Və bu, İranın regional liderlik üçün açıq və çox sərt iddiası ilə nəticələnə bilər. Hə dostlar, biz indi hamıdan güclü olacağıq, çünki bizim atom bombamız var və s. Bizimlə olmaq istəyən bizimlə olacaq, kim bizə qarşı olmaq istəmirsə gəlsin. Bu, bir variant olaraq nəzərə alınmalı olan hadisələrin inkişafıdır.

**- Yəni, yaxın gələcəkdə Cənubi Qafqaz, Xəzər regionunda sabitlik və konstruktiv əməkdaşlıq gözləməyə dəyməz...**

- Problem ondadır ki, İran indi kəskin şəkildə dəyişə bilər. Cənubi Qafqazda və mümkün olan hər yerdə vəziyyətin sarsıdılmasında maraqlı olanlar hələ də az deyil. Azərbaycan İrana qarşı maksimum səbir göstərməlidir. Bu çox vacibdir. Çünki İslam Respublikasının hərəkətləri nəticəsində genişmiqyaslı regional böhran başlayarsa, o zaman bütün bunlar Yaxın Şərq üçün çox pis başa çatacaq. Azərbaycan isə qərarlarında və yanaşmalarında səbirli və virtuoz olmalıdır. Bildiyimiz kimi, Azərbaycan hər zaman səbirli və konstruktivdir, sözü küləyə atmır. Ancaq indi çox vacib bir vəziyyət gəlir. Daha da diqqətli olmaq lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
4 fevral
2023-cü il

# Hansı tip mənzillərə tələbat daha çoxdur?

***"Hal-hazırda Bakı şəhərində və ətraf qəsəbələrdə mənzil bazarında 2022-ci illə müqayisədə hələ ki, tələbat çıxarışı olan və qiymətləri 250000 AZN qədər olan mənzillərə daha çoxdur". Bu sözləri SİA-ya açıqlamasında əmlak üzrə ekspert Anar Nəsirov deyib.***




Onun sözlərinə görə, indi alıcıların əksəriyyəti sovet dövründə tikilmiş 1, 2 və 3 otaqlı evlərə daha çox üstünlük verir: "Çünki bu mənzillərin qiyməti digər mənzillərə nisbətən daha əl çatandır. Alıcıların bu tipli mənzilləri seçməsinə daha bir səbəb isə həmin mənzillərin sahələrinin kiçik və otaq saylarının çox olmasıdır. Çünki sahəsi balaca olan mənzilləri qiymətinin yeni tikilmiş binalarla müqayisədə daha ucuz olması ilə yanaşı, həm də o mənzillərin qış aylarında isidilməsi və yay aylarında soyudulması xərclərinin az olmasıdır. Çünki sahənin kiçik olması həmin tipli mənzillərin soyutma və isidilməsində daha əlverişli olmasıdır".

Anar Nəsirov sözlərinə belə davam edib: "Bu tipli mənzillərin alıcılar tərəfindən daha cazibədar olmasına daha bir səbəb də həmin mənzillərə söküntüyə düşdüyü zaman əlavə kvadrat və daha müasir yeni binalarda evlərin verilməsidir. Söküntüyə düşən binada həmin binanın yerində tikinti aparan MTK-lar mənzil sahiblərinə həmin binanın yerində inşa ediləcək binada daha müasir və elit mənzillər təklif edirlər. Bu da sakinlər üçün daha əlverişlidir.

Söküntüyə düşən binanın sakininə əlavə kvadratdan başqa ona 3 il kirayə pulu və tam təmirli daha böyük mənzil verilməsi sakinlər üçün əlavə qazanc deməkdir. Hesab etsək ki, söküntüyə düşən mənzilin 100 kvadrat ümumi sahəsi var və söküntü zamanı tikinti tikən şirkət ona 130 kvadrat daha yaxşı təmirli ev veriləcək, bu, mənzil sahibi üçün daha uduşlu və bu bazarlıqdan daha qazanclı çıxması deməkdir. Çünki sakin əgər bu köhnə tikili binanı şəhərin mərkəzi hissəsində satıb haradasa 150000 -160000 AZN pul əldə edə bilərdisə, ona sökülən mənzilin yerinə verilmiş binada verilmiş mənzili satdığı halda bu rəqəm 280000 AZN qədər pul edir. Bu da mənzil sahibinin 120000-130000 AZN əlavə qazancı deməkdir.

Məhz bu mənzillərdə belə şansların olması həmin mənzillərin alıcılar tərəfindən daha çox seçilməyinə səbəb olur. Digər bir variant isə 1980-ci illərdən sonra tikilmiş binalarda olan mənzillərin ipoteka ilə almağın daha rahat və ucuz başa gəlməsidir. Belə ki, yeni tikilən binalarda mənzilin sahəsinin böyük olması onun qiymətinin daha yuxarı olmasına səbəb olur. Amma sovetlər dövründə tikilən binalarda mənzilin sahəsi balaca olsa da, o mənzillərdə otaq sayı çox olur və evin planında itkiyə gedən sahə olmur. Məhz bu kimi amillərə görə köhnə tikili evlərə tələbat yeni bina evlərinə görə daha çoxdur.

Bu mənzillərin daha bir özəlliyi onun qiymətinin daha münasib olmasıdır, çünki həmin mənzilə olan tələbat mənzil bazarının haradan baxsaq 50 % təşkil edir. Buna səbəb isə təkrar mənzil bazarında alıcıların bu tipli mənzillərin qiymətləri ətrafında mənzil almaq üçün pul ayırırlar. Yeni tikilmiş bina evlərində isə bazar belədir. Əvvəlki illə müqayisədə indi alıcılar daha çox sahəsi az olan və çıxarışı olan (kupçası) mənzillərə üstünlük verirlər. Bu da onu göstərir ki, böyük sahəli evlərə maraq göstərmirlər. Bunun bir neçə səbəbi var. Yuxarıda qeyd etdiyim kimi, mənzillərin isitmə və soyutma xərclərini göstərmək olar. Atalar demiş: "Böyük evin böyük də problemi olar". Böyük sahəsi olan mənzillərin alıcının az olmasına əsaslı səbəb kimi qiymətinin daha çox olmasıdır. Çünki hamıda o pul olmur və hamı o qiymətə ev ala bilməz. Böyük sahəsi olan evlərin də alıcısı var. Amma onlar mənzil bazarında alıcıların 10 % təşkil edir. İndi Bakı şəhərində yeni tikilmiş bina evlərinə nəzər salsaq görərik ki, yeni tikilmiş padmayak mənzillərin 1 kv-sı orta hesabla 2200 AZN-dən təklif edilir. Siz əgər bir 3 otaqlı mənzil almaq istəsəniz, 130 kv sahəsi olan mənzil haradasa 286000 AZN edir. Bunun üstünə orta təmir pulu 45000 AZN gəldikdə isə bu rəqəm 331500 AZN edir. Təbii ki, az pul deyil və hər adam bu qədər pulu toplaya bilməz.

Onda deməli, yenə də şəhərin mərkəzi hissələrindən orta təmirli bir köhnə bina alsaq, bu, 160000 azn edər. Bu da alıcıya daha ucuz başa gəlir. Düzdür, hər evin öz alıcısı var. Mən demirəm yeni tikili evləri alan yoxdur. Təbii ki, onların da öz alıcıları var. Sadəcə, köhnə evlərə qiymət və alıcılıq qabiliyyəti tərəfindən daha çox tələbat var. Yəni bina evlərində də indi alıcılar daha çox Çıxarışlı (Kupçası) olan və sahəsi nisbətən az olan mənzillərin alıcıları çoxdur.

Sahənin az olması qiymətlərin daha münasib olmasıdır. Şəhərin ən bahalı hissəsinə gəldikdə isə evlərin ən bahalı yeri Səbail və Nəsimi rayonlarıdır. Verginin ən çox vergi alıdığı hissə yenə zona 1-də məhz bu rayonların mərkəzi hissəsinə düşür. Sonrakı yerləri isə Nərimanov və Yasamal rayonlarının mərkəzi hissələri tutur. Bu adını qeyd etdiyim rayonların mərkəzi hissəsində digər rayonlarla müqayisədə qiymətlər daha yüksəkdir".

*Ayşən Vəli*



# Messi: "Həmişə sadə bir insan kimi yaşamağa çalışıram"

**PSJ-nin futbolçusu Lionel Messi populyar bir insan kimi necə yaşamasından danışıb. Qol.az xəbər verir ki, argentinalı hücumçu "Ole"yə açıqlamasında özünü dünyanın bir nömrəli personajı hesab etmədiyini və hər zaman sadə olmağa çalışdığını bildirib:**

"Adi insan kimi yaşayın. Ailənizdə, övladlarınızda xırda şeylərdən həzz almağı bacarın. Məşhur olmaq, tanınmaq xatirinə nəsə etmirəm. Mən həmişə özüm olmağa və normal yaşamağa çalışmışam. Düşünürəm ki, mən və ailəm normal davranış göstəririk. Bəli, məni tanıyırlar, avtoqraf, foto istəyə bilərlər, amma həmişə sadə və adi bir insan kimi yaşamağa çalışıram".

# Çörək orqanizmimizə necə təsir göstərir?

ARAŞDIRMA

***Çörək ən çox tələb olunan qida məhsullarından biri hesab olunur. Ağ çörək bütün növlər arasında ən yüksək glisemik indeksə, həmçinin qida və vitaminlərin ən aşağı tərkibinə malikdir. SİA mövzu ilə bağlı araşdırma aparıb. Ağ çörək birinci növ undan hazırlanır. Tərkibində olan maya bədəndən kalsiumu çıxarır. Həm də həzm sistemini yükləyir, qaraciyərə təsir edir və mədənin turşuluğunu artırır. Çovdardan hazırlanan çörəyin tərkibində çoxlu vitamin və liflər var. Bununla belə, çovdar mədə mukozasını qıcıqlandıra bilən yüksək asidik mühitə malikdir.***



Mayasız çörək turş xəmirdən hazırlanır, lakin mayasızdır. Bu növ məhsul ən faydalı və aşağı kalorili hesab olunur. Natriumla zəngindir, daha az protein və yağ ehtiva edir. Eyni zamanda mayasız çörək suyu saxlayır və tərkibindəki soda olduğundan həzm sisteminə mənfi təsir göstərir. Çörək ən əlverişli karbohidrat mənbəyidir ki, bu da onun əsas faydasıdır. Bu məhsulun tərkibində olan dənli bitkilər insan üçün lazım olan vitamin və minerallarla zəngindir. Çörəyin əsas çatışmazlığı onun yüksək glisemik indeksidir (xüsusilə də ağ çörəkdə ).

Məhsulun tez-tez istifadəsi ilə mədə krampları, şişkinlik, qəbizlik kimi mədə-bağırsaq traktında problemlər yaranır. Diyetoloqlar bildirir ki, lavaş çörək əvəzi kimi istifadə etmək daha çox xeyirlidir.

Qida mütəxəssisi, diyetoloq Həcər Kərimova :"Əgər sağlamlığımızı düşünsək, ağ çörəyi tamamilə menyudan çıxartmaq məsləhtlidir. Ağ undan hazırlanan məmulatlar-şirinyyat , xəngəl, çörək makaron bunların hər biri zərərli karbohidrat sayılır. Elə insanlar var ki, çörəkdən imtina edir, o zaman korbohidratlı qidalar qəbul etmək lazımdır".

Diyetoloq isti çörəyin daha çox təhlükəli olduğunu bildirib: "Çörəyi isti formada qəbul etdikdə mədədə şişir və yediyindən 3/4 dəfə böyük olur. Sonra həzm sistemini pozmağa başlayır. Mədəaltı vəzidə problem olan insanlarda həmən bürüzə verir. İsti çörək yeyəndən sonra mədədə bərkitmə, öddə problemlər yaranır. Hətta ağ çörəyi hansısa yağlı yeməklə və yaxud pendirlə yeyib, üstündən maye qəbul ediriksə həmən mədədə tonus yaranır və bu da grijanın yaranmasına səbəb olur . Ona görə də ağ çörəkdən tamamilə imtina etmək lazımdır. Əsasən çovdar, qara undan hazırlanan çörəklərə üz tutmaq lazımdır. Diyeta çörəkləri də var, onların tərkibində dənli bitkilər kətan toxumu, yaşıl mərci olur. Çovdar, qara undan hazırlanan çörək 3 dilim qədər qəbul etmək məsləhətlidir. Çalışaq ki, saat 7-dən sonra, ümumiyyətlə, çörək yeməyimizi dayandıraq".

*Havar Şəfiyeva*

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**